www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   5 mart 2015-ci il   Cümə axşamı   № 49 (6077)   Qiyməti   40 qəpik

Xəbər

## Bakıda intihar həyəcanı; gənc oğlan özünü doğradı

yazısı səh.15-də

Gündəm

### Gürcüstanda gizli İŞİD təlim düşərgələri - şok iddia doğrudurmu?



Suriyanın ordu generalı Azərbaycana qonşu ölkədə gizli terror bazalarının olduğunu iddia edir; ekspertlər bunu istisna etmir; Pankisi yenidən gündəmə gəlir...

yazısı səh.12-də

### Devalvasiyadan on gün sonra - yenə manat düşəcək?

yazısı səh.3-də

### Azərbaycan Rusiyanın yanında yer alıb?

yazısı səh.4-də

*Vəfa Quluzadə:*

### "Bölgədə müharibə təhlükəsi var"

yazısı səh.11-də

### "Azadlıq-2015" deputatlığa namizədlərini müəyyənləşdirir

yazısı səh.4-də

*Vahid Əhmədov:*

### "Hətta xaricdən gətirilən malların qiymətində artım 12 faizdən çox olmamalıdır"

yazısı səh.10-da

### Bəşər Əsədin sarayında - prezident jurnalistləri yanına yaxınlaşdırmadı

yazısı səh.9-da

### Qubad İbadoğlu beş aylıq ABŞ səfərinin səbəblərini açıqladı

yazısı səh.8-də

### Milli Şuranın mitinqi ilə bağlı bədbin proqnozlar

yazısı səh.6-da

### "Forbes"in "tapa bilmədiyi" azərbaycanlı milyarderlər

yazısı səh.8-də

### Qəzetlərin qiyməti 1 manatadək qalxa bilər

yazısı səh.12-də

## MTN və DİN dövlət çevrilişinə hazırlaşan radikalları həbs etdi

# VARLILARA VƏ "KAFİRLƏR"Ə DİVAN TUTMAQ İSTƏYƏN DƏSTƏ TUTULDU - TƏFƏRRÜATLAR

Dəstə üzvləri "qanını və malını" özlərinə "halal" bildikləri müxtəlif zəngin şəxsləri qarət etməyi və hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı sui-qəsdlər planlaşdırıblar; demokratik qüvvələrin sıxışdırılaraq meydandan çıxarılması radikal dini cərəyanlara üz tutanların sayını niyə artırır...



yazısı səh.5-də

## İş adamlarına qarşı "vergi terroru" - gizlində qalan təfsilat

Vergi işçiləri ölkə boyunca bütün sahibkarlara total basqınlar edir, onlara yeni xərac kəsir; oliqarxlarla başlayan proses kiçik tacirləri də ağuşuna alıb...

yazısı səh.3-də



### İlham Əliyev və Borisov "Nabucco"nu diriltməyə qərar verdilər

yazısı səh.2-də



*Əli Həsənov:*

### "Avropa Oyunlarını Azərbaycana qarşı "qara piar"ın baş mövzusuna çevirməyə çalışırlar"

yazısı səh.2-də



*Bəxtiyar Sadıqov:*

### "O məqaləyə görə məni elə danladılar..."

yazısı səh.7-də

# 5 mart 2015



## İlham Əliyev və Borisov "Nabucco"nu diriltməyə qərar verdilər

**Azərbaycan prezidenti İlham Əliyevin Bolqarıstana səfəri sensasiya ilə müşahidə olunur. Virtualaz.org saytı novinite.com saytına istinadən xəbər verir ki, martın 4-də Sofiyada apardıqları danışıqların nəticəsi olaraq Azərbaycan və Bolqarıstan liderləri "Nabucco" qaz kəməri layihəsini "diriltməyə" qərar veriblər. Bu barədə Bolqarıstanın baş naziri Boyko Borisov bəyan edib.**

Baş nazir jurnalistlərə bildirib: "Elə bu gün biz prezident Əliyevlə birlikdə Avropa İttifaqının Komissiyasına "Nabucco"nun yenilənməsinə dair layihəni təqdim edəcəyik".

B.Borisov deyib ki, Bolqarıstan Aİ-nin olduqca loyal üzvü olub və üçüncü enerji paketinin bütün tələblərini yerinə yetirib. Bu, Bolqarıstanın Rusiyanın "Cənub axını" layihəsini bloklamaq qərarında da özünü göstərib.

"Bolqarıstan bu mövqeyini Rusiyanın Türkiyə ilə birlikdə həyata keçirmək istədiyi "Türk axını" layihəsinə münasibətdə də nümayiş etdirəcək"- deyə Borisov bildirib: "Bolqarıstan sadəcə olaraq tormoz rolunu oynaya bilməz, Bolqarıstan sadəcə olaraq Avropa Komissiyasının maraqlarına xidmət etməyəcək. İndiki halda bu, tamamilə NATO-nun və Avropanın maraqlarına cavab verən layihədir və biz illərlə "Nabucco" layihəsinə pul qoymuşuq".

Baş nazir həmçinin Cənub Qaz Dəhlizinin mühümlüyünü qeyd edib. Bildirib ki, Azərbaycan prezidenti danışıqlar zamanı Bolqarıstanın "BULGARGAZ" şirkətinin bu layihədə pay almasının mümkünlüyünü bildirib.

## Baş Prokurorluğa yeni idarə rəisi təyin edildi

**Baş Prokurorluğa yeni idarə rəisi təyin edilib. APA-nın məlumatına görə, baş prokuror Zakir Qaralov bu barədə əmr imzalayıb.**

Əmrə əsasən, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin şöbə rəisi Elşən Abbasov tutduğu vəzifədən azad edilərək Baş Prokurorluqda Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi vəzifəsinə təyinat alıb.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov yeni təyinat barədə məlumatı APA-ya təsdiqləyib.

Qeyd edək ki, bir neçə gün əvvəl Baş Prokurorluqda Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Rasim Hacıyev tutduğu vəzifədən azad edilərək Yasamal rayon prokuroru vəzifəsinə təyin edilib.

## Vergini ödəməyən şirkətlərin siyahısı - "Azərenerji", "Azərsu"...

**Azərbaycan Vergilər Nazirliyi ölkədə vergi borcunu ödəməyən şirkət və fiziki şəxslərin siyahısını açıqlayıb. Vergilər Nazirliyindən "Qafqazinfo"ya daxil olan məlumata görə, həmin şirkətlər arasında "Azərenerji" ASC-nin "Gəncə regional elektrik şəbəkəsi" MMC, "Azərsu" ASC-nin "Birləşmişsukanal" MMC və "Sutikinti" müəssisəsi, "Doppelmayr Seilbahnen GmbH" kanat yollarının tikintisi şirkətinin filialı, "Hess (ACG) Limited" neft şirkətinin Bakı nümayəndəliyi, "Karasu Development Company" neft şirkətinin Kayman adalarında qeydiyyata alınmış nümayəndəliyi, "Petroleum Services Group SA" şirkəti, MILK-PRO süd emalı şirkəti, "Bakı Şərab-2" müəssisəsi, "Rotary Engineering" şirkətinin Bakı filialı və digər şirkətlər var.**

Ümumilikdə siyahıda 405 hüquqi və fiziki şəxs yer alıb. 2015-ci ilin yanvar ayı ilə müqayisədə vergi borcunu ödəməyənlərin sayı 6,6 faiz artıb.

Tam siyahı ilə bu səhifədə tanış olmaq olar:
http://www.taxes.gov.az/uploads/vergiborcu/04032015.pdf

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Avropa Oyunlarını Azərbaycana qarşı "qara piar"ın baş mövzusuna çevirməyə çalışırlar"



**"Avropa Olimpiya Komitəsi Azərbaycanda I Avropa Oyunlarının keçirilməsi ilə bağlı qərar qəbul etdikdən sonra ötən dövr ərzində Təşkilat Komitəsi bu mühüm beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkili üçün mühüm işlər görüb. Yeni idman qurğularının tikintisi, artıq mövcud olan qurğuların yenidən bərpa olunması, sosial və nəqliyyat infrastrukturunun dünyada mövcud olan qabaqcıl standartlara uyğun təkmilləşdirilməsi, qonaqların yerləşdirilməsi, təhlükəsizlik və digər bu kimi məsələlər uğurla həll olunur və artıq başa çatmaq üzrədir. Avropa Olimpiya Təşkilatı öz açıqlamalarında görülən işləri yüksək qiymətləndirib. Bütün bunlar ölkəmizin dünyada əsas verir ki, Azərbaycanda keçiriləcək I Avropa Oyunları öz möhtəşəmliyi ilə yaddaşlarda qalacaq".**

APA-nın məlumatına görə, bu açıqlama ilə prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi, **PA-nın şöbə müdiri Əli Həsənov çıxış edib:** "Təəssüf ki, davamlı şəkildə Azərbaycanın iqtisadi, sosial, siyasi, humanitar və digər sahələrdə əldə etdiyi uğurları gözdən salmağa çalışan bəzi yerli qruplar və xarici dairələr bu fürsəti də əldən verməkistəmir və I Avropa Oyunlarını ölkəmizə qarşı həyata keçirilən "qara piar" kampaniyasının baş mövzusuna çevirməyə çalışırlar. "Amnesty İnternational" təşkilatının I Avropa Oyunlarını boykot çağırışı, oyunlara hazırlıqla bağlı həyata keçirilən tədbirlər haqqında dezinformasiyaların dövriyyəyə buraxılması, xarici KİV-də sifarişlə yerləşdirilən qərəzli, qeyri-obyektiv materiallar və digər məsələlər bu cəhdlərin bariz nümunələridir"

**Onun sözlərinə görə, təsadüfi deyil ki, AzadlıqRadiosu başda olmaqla, bəzi maraqlı qüvvələr sosial şəbəkələrdə guya Azərbaycanda Avropa Oyunları ilə əlaqədar heyvanlarla qəddar davranıldığını əks etdirən video yayır və paylaşırlar:** "Halbuki həmin videoda hadisənin məhz Azərbaycanda baş verdiyini təsdiq edən heç bir dəlil yoxdur. Bu da bir daha sübut edir ki, bu kimi "faktları" ortaya atanlar Avropa Oyunları ərəfəsində Azərbaycanın imicini ləkələməyə və mühüm beynəlxalq idman tədbirinə qarşı açıq təxribat törətməyə çalışırlar. Biz belə təxribatlarla əvvəllər də, 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi keçiriləndə də rastlaşmışıq. Həmin dövrdə beynəlxalq ictimaiyyət əmin oldu ki, bütün bunlar Azərbaycana təzyiq göstərmək, onun müstəqil siyasətinə öz iradəsini qəbul etdirmək istəyən qüvvələrin qurduğu məkrli oyundan başqa bir şey deyil. Əmin olduğumuzu bildiririk ki, Azərbaycanı gözdən salmaq üçün istifadə olunan bu tipli primitiv, ucuz metodlar heç bir nəticə verməyəcək və nə qədər gec deyil, həmin qüvvələri məkrli niyyətlərindən geri çəkilməyə dəvət edirik".

## Müdafiə naziri Türkiyə HHQ-nin komandanı ilə görüşdü

**Azərbaycan müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Akın Öztürkü qəbul edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, A. Öztürkün rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri Xiyabanda Heydər Əliyev və Zərifə Əliyevanın məzarlarını, sonra Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş vətəndaşlarımızın məzarlarını, o cümlədən Türk Şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra A. Öztürkün Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi olub. Protokola uyğun olaraq o, Şərəf Kitabına ürək sözlərini yazıb.

Nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə Z. Həsənov Azərbaycanla Türkiyə arasında əməkdaşlığın dostluq-qardaşlıq münasibətləri üzərində qurulduğunu və bu əlaqələrin daim inkişaf etdiyini qeyd edib. Müdafiə naziri iki ölkə arasında hərbi əməkdaşlıq planına əsasən keçən il Azərbaycan səmasında, hazırda isə Türkiyədə keçirilən Hərbi Hava Qüvvələrinin birgə təlimlərinin təcrübə toplanılması baxımından mühüm olduğunu qeyd edərək bu sahədə əlaqələrin daha da genişləndirilməsini xüsusi vurğulayıb.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan Z. Həsənov Ermənistanın regional sabitliyə əsas təhlükə yaratdığını, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları əsasında həllinə nail olunmasının vacibliyini bildirib.

A. Öztürk isə dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq münasibətlərinə əsaslandığını və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu qeyd edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## FHN əməkdaşının qanunsuz həbsi aranı qatıb



**Xəzər Rayon İcra Şöbəsi Fövqəladə Hallar Nazirliyinin giziri Ceyhun Məmmədovu qanunsuz olaraq həbs edib. 5 sutkalıq həbs cəzası verilən gizirin dövlət qurumlarına müraciətindən sonra məsələ araşdırılıb. FHN-dən qanunsuz həbsə dərhal reaksiya verilib, həbs qərarından apelyasiya şikayəti məhkəməyə təqdim olunub. İnzibati Xətalar Məcəlləsinin 15.3-cü maddəsinin tələbinə görə hərbi qulluqçuya mülki iş üzrə həbs verilə bilməz.**

C.Məmmədov həbsindən əvvəl Xəzər Rayon İcra Şöbəsinin rəisi Mübariz Məmmədova onun Fövqəladə Hallar Nazirliyinin giziri olmasını təsdiqləyən arayış təqdim edib. Lakin şöbə rəisi həmin arayışı bir kənara tullayaraq gizirin inzibati qaydada həbsinə yol açan qərar verib. Məhkəmə gizirin həbsindən dolayı verilmiş apelyasiya şikayətini təmin edib. Yaranmış durumla bağlı İcra Şöbəsində xidməti yoxlama başlanıb.

❑ E.HÜSEYNOV



## Azay Quliyev BMT rəsmisi ilə görüşdü

**Martın 4-də Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasınında Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu Azərbaycan nümayəndəliyinin rəhbəri Andro Şilakadze və fondun Uşaqların Müdafiəsi proqramının rəhbəri Ramiz Behbudovla görüş keçirilib.**

Nümayəndəliyin rəhbəri Andro Şilakadze fondun fəaliyyəti barədə geniş məlumat verərək şura ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib. A. Şilakadze təmsil etdiyi fondun Şəmkir, Şirvan və Qəbələdəki QHT Təlim və Resurs mərkəzləri, eləcə də uşaq hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən digər QHT-lərin bilik və bacarıqlarının artırılması istiqamətində həyata keçirmək istədikləri layihələr haqqında da fikirlərini bildirib.

Qonaqlar QHT haqqında qanunvericiliyə edilən əlavə və dəyişikliklərdən sonra BMT-nin tərkib hissəsi olan UNİCEF, UNDP-in fəaliyyət imkanlarının vəziyyəti ilə maraqlandıqlarını deyiblər.

Şura sədri, millət vəkili Azay Quliyev şuranın QHT sektorunun inkişafı istiqamətində həyata keçirdiyi işlər haqqında qonaqlara ətraflı məlumat verib. Azay Quliyev fondun ölkəmizdəki fəaliyyətini yüksək qiymətləndirdiyini deyib və Azərbaycan qanunvericiliyində edilən son dəyişikliklərin QHT sektorunda şəffaflığın, effektiv idarəetmənin və hesabatlılığın təminatına xidmət etdiyini qeyd edib.

Görüşdə qonaqları maraqlandıran suallara cavab verilib və şura ilə fondun əməkdaşlıq imkanlarının genişləndirilməsi haqqında müzakirələr aparılıb.

## İrəvanda qan su yerinə axdı: atışmada 3 nəfər öldü

**Martın 4-də İrəvanın mərkəzində atışma olub. Virtualaz.org saytı erməni KİV-lərinə istinadən xəbər verir ki, Ermənistan paytaxtının Nubaraşen rayonu ərazisində davamlı atəş səsləri eşidilib. İrəvan polisi dərhal hadisə yerinə cəlb olunub.**

İlkin məlumata görə, bir neçə şəxs "Nubaraşen" türməsinin ətrafında avtomatlardan atəş açıb. Atışma zamanı 3 nəfər ölüb. Onlardan biri hadisə yerində, ikisi isə xəstəxanada keçinib.

Qanlı qırğının səbəbləri və təfərrüatları barədə hələlik heç nə məlum deyil.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İş adamlarına qarşı "vergi terroru" - gizlində qalan təfsilat

## Vergi işçiləri ölkə boyunca bütün sahibkarlara total basqınlar edir, onlara yeni xərac kəsir; oliqarxlarla başlayan proses kiçik tacirləri də ağuşuna alıb; lakin ilk dəfədir ki, yığılan bütün pullar tamamilə büdcəyə yönləndirilir

**Manatın məzənnəsinin dollar və avroya nisbətdə təxminən 30 faiz ucuzlaşması ən çox sahibkarları çıxılmaz duruma salıb. Bir tərəfdən monopolistlərin təzyiqi, digər tərəfdən, gömrükdə, vergi orqanlarında onların "soyulması" iş adamlarını onsuz da təngə gətirmişdi. Üstəlik, bir tərəfdən də manatın devalvasiyası sahibkarlara ikiqat zərbə vurur.**

Ekspertlər təklif vermişdilər ki, manatın ucuzlaşmasından sonra ərzaq və qeyri-ərzaq mallarının qiymətinin bahalaşmasının qarşısının alınması üçün optimal variant gömrükdə rüşvəti yığışdırmaq, iqtisadiyyatda monopoliyanı yumşaltmaq, iş adamlarına vergi güzəştləri etmək lazımdır.

Nəzərə çatdıraq ki, ölkə prezidenti süni qiymət artımına yol verənlərin cəzalandırılacağını bildirib. Dövlət başçısının tapşırığından sonra bir sıra malların qiyməti əvvəlki həddinə qaytarılıb. Süni qiymət artımı edənlərlə bağlı tədbir görüldüyü bir vaxtda orta və kiçik sahibkarlar vergi müfəttişlərinin "qəfil hücumu"na məruz qalıblar. Həm də bu proses bütün ölkə boyunca baş verib.

**Redaksiyamıza bununla bağlı xeyli sayda iş adamı müraciət edib. Onlar bildirir ki, dövlət başçısının vergi müfəttişlərini nəzarətə almaqla bağlı da göstəriş verməsini arzulayırlar. Daxil olan məlumatlardan aydın olur ki, vergi müfəttişləri bütün ölkə boyunca sahibkarları soyurlar. Bir sahibkarın dediklərindən:** "Əvvəllər bizdən illik "haqqı" iyun ayında alırdılar. Növbəti ilin həmin vaxtına qədər incitmirdilər. Manatın devalvasiyasından sonra biz güzəştlər gözləyirdik, amma vergi müfəttişləri bizə "sürprizlər" edirlər. Bütün qaydalar yenidən "yazılır". Deyirlər ki, yeni qayda tətbiq olunur, bundan sonra sahibkarlardan "haqqı" illik yox, aylıq alacağıq. Bu, qeyri-rəsmi ödənişdir, dövlətin vergisini onsuz da veririk. Kim "haqq" verməsə onun başına oyun açılır, mağazasını, obyektini bir bəhanə ilə qapadırlar. Həmçinin yeni kassa aparatları gətiriblər, deyirlər ki, bunları almalısınız, köhnə cihazları ləğv edirik. Yeni kassa aparatının qiyməti də modelindən və obyektin kvadratından asılı olaraq, dəyişir. Biz faktiki olaraq "vergi terroru" ilə üzləşmişik".

**Sahibkarlar həmçinin bildirdilər ki, monopolistlər bazalardan mal satışını məhdudlaşdırıblar:** "Bir sıra malların ölkəyə idxalı iri məmur-oliqarxların nəzarətindədir. Dollar bahalaşandan sonra onlar bazadan mal vermirlər, deyiblər ki, martın 15-dən sonra satışı bərpa edəcəyik. Karqodan da mal çıxarmaq mümkün deyil. Həmçinin özümüzün xaricdən sifariş



etdiyimiz mallar üçün gömrükdə, karqoda rüşvəti də dollarla tələb edirlər. Məsələn, əvvəllər 1000 kub mala görə 5000 manat istəyirdilərsə, indi 5 min dollar tələb edirlər".

Sahibkarlardan həm də tələb olunur ki, hətta günəmuzd çalışdırdıqları işçiləri də sənədləşdirsinlər. Elə sahibkar var ki, obyektində kiçik təmir-tikinti işləri gördürmək üçün "qul bazarı" deyilən, qeyri-rəsmi əmək birjasından günəmuzd işçilər cəlb edib. Obyektləri "basan" vergi müfəttişləri onları qeydə alıb, sənədlərinin surətlərini götürməklə, işçi kimi protokollaşdırıb və sahibkardan tələb edir ki, onlarla müqavilə imzalasın, rəsmən işə götürsün. Bu cür uyğunsuz şərtlər artıq xeyli sahibkarı şirkətini müvəqqəti də olsa, qapatmaq məcburiyyətində qoyub.

"Yeni Müsavat" qəzetinə məlumdur ki, ümumiyyətlə, total vergi yoxlamaları yalnız orta və xırda sahibkarları yox, bundan əvvəl də yazdığımız kimi, vəzifəli oliqarxlara məxsus olan iri şirkətləri də əhatə edir. Həm də bütün bunlar bir ilkdir. Ölkənin ən qüdrətli oliqarxlarına bağlı olan və toxunulmaz sayılan, ciddi monopolist qurumlar da ilk dəfədir ki, vergi yoxlamalarına cəlb olunurlar. Həm də onlara, qısa müddətdə "dövriyyəni yoxlayaraq", haqq qoyurlar. "Yeni Müsavat" qəzetinə 10-15 milyon manat qeyri-rəsmi rüsum yüklənən böyük şirkətlərin adları da məlumdur. Əslində isə bu paralar həmin şirkətlərdən yox, mövcud hakimiyyətin sayəsində zəngin olmuş oliqarxların özlərindən istənilir.

Əgər bu proses xırda sahibkarları, "bacasından tüstü çıxan" bütün obyektləri əhatə etməsəydi, əslində normal sayıla bilərdi. Ölkə çətinə düşəndə, təbii ki, onun sərvətləri sayəsində milyarder olanlardan xərac alınmalıdır. Bunu bir çox dövlətlər edir. Lakin sadə taciri, az qala gündəlik ruzuya çalışan sənətkarları, sex və digər obyektləri bu prosesə qatmaq vəziyyəti neqativə doğru dəyişdirir.

**Yazının sonunda obyektivlik naminə bir məsələni də yazmalıyıq. Bəlkə də ilk dəfədir ki, yığılan pullar ciddi nəzarət altında büdcəyə yönəldilir. Bu da ölkədəki durumun ciddiyyətini və mövcud iqtidarın manevr imkanlarının necə də qısıtlı olduğunu göstərir.**

❑ **T.ƏHMƏDLİ**

# Devalvasiyadan on gün sonra - yenə manat düşəcək?



## Ekspertlər tezliklə manatın dollar qarşısında növbəti ucuzlaşmasını gözləyirlər...

**Manatın qəfil və kəskin ucuzlaşmasından on gün keçir. Devalvasiyadan sonra son iki gündə manat cüzi olaraq dollar qarşısında üstünlük qazanıb. Ekspertlər isə bildirirlər ki, manatın bahalaşması müvəqqətidir. Əksinə, ucuzlaşma qaçılmazdır. Həmçinin bahalaşmanın psixoloji məqam olduğu da vurğulanır.**

Mərkəzi Bankın xəbərinə görə, martın 4-nə olan məzənnəyə əsasən, 1 dollar 1,0493 manat, avro isə 1,172 olub. Bu isə manatın dollara nisbətən bir qədər qalxması deməkdir. Qeyd edək ki, fevralın 21-dən Mərkəzi Bankın yeni qərarı ilə dolların məzənnəsi 1,05 manat olub, avronun məzənnəsi isə 1,1950 təşkil edib.

**Ekspert Samir Əliyev** məsələ ilə bağlı musavat.com-a bildirib ki, devalvasiyadan sonra ilk reaksiya qiymətin artması olub: "Sonradan hökumət qiymətin artmasını inzibati yolla müvəqqəti olaraq dondurdu, imkan vermədi. Amma qiymətin sabitliyi müvəqqəti xarakter daşıyır. Uzağı, Novruz bayramından sonra, mart ayının sonundan başlayaraq biz qiymət artımını müşahidə edəcəyik. Novruz qabağı ərzaq mallarının qiyməti qalxacaq və ondan sonra düşməyəcək. Biz bayramdan sonra kütləvi olaraq qiymət artımını birbaşa olmasa da, tədricən müşahidə edəcəyik. Bu, devalvasiyanın qiymətə təsiridir. Manata isə diqqət yetirsək, son 4-5 gündə manatın yüngül də olsa, bahalaşması müşahidə edilir. Əslində bu bahalaşma rəsmi bahalaşmadır. Amma valyutadəyişmə məntəqələrinə diqqət yetirsək, hər hansı bir dəyişiklik müşahidə edilmir. Dolları əvvəlkindən ucuz almırlar. Fikrimcə, manatın bahalaşması müvəqqəti xarakter daşıyır. Bahalaşma olacaqsa da, bu, uzunmüddətli olmayacaq, qısamüddətli olacaq. Bir dolların bir manatdan aşağı düşməsini gözləmirəm. Ən yaxşı halda, dollar bir manata qədər ucuzlaşa bilər. Amma bu həddi keçəcəyini gözləmirəm".

**Ekspertin sözlərinə görə, amma ümumən götürəndə, hər şey neftin qiymətindən asılı olacaq:** "Neft indi 60 dollar həddindədir. Əgər neft bahalaşmağa doğru getsə, 70 dolları keçsə, manatın bahalaşması müəyyən qədər davam edəcək. Əgər neft əksinə, üzüaşağı getsə, bu halda manatın ucuzlaşmasını müşahidə edəcəyik".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a bildirib ki, dünya valyuta bazarında baş verən proseslərin Azərbaycana təsiri qaçılmazdır:** "Görünən odur ki, devalvasiyadan sonra hələ bazar, əsasən də maliyyə sektoru özünə gələ bilməyib. İnsanlar əllərində olan vəsaiti artıq manatda saxlamaq istəmirlər. Qazanclarını xarici valyutaya çevirmək manata olan güvənsizliyin nəticəsidir. Bu ab-hava uzun müddət davam etsə də dollara tələbat getdikcə artsa, təbii ki, Mərkəzi Bank addım-addım çox yumşaq şəkildə devalvasiyaya gedəcək, bu ehtimal yüksəkdir. Sərt devalvasiya qərarı gözlənilmir".

Yerli və xarici ekspertlərin fikrincə, Milli Bankın bu addımı bir qrup imkanlı şəxslərin daha da varlanmasına, orta və aşağı təbəqədən olan insanların isə daha da kasıblaşmasına yol açır. Bildirilir ki, ona görə də əhalinin itkiləri kompensasiya olunmalı, hökumət maaşları, pensiyaları və müavinətləri artırmalıdır. Nazirlər Kabineti istehlak səbətinin dəyəri, minimum əmək haqqı məsələsinə yenidən baxmalıdır.

Onların sözlərinə görə, gəlirlər indeksasiya olunmasa, insanların alıcılıq qabiliyyəti azalacaq, bu da Azərbaycanda sosial problem yarada və yerli istehsala təsir göstərə bilər.

**Milli Məclisin deputatı Əli Məsimli ANS-ə bildirib ki, manatın devalvasiyası nəticəsində yaranmış vəziyyəti yumşaltmaq və sosial itkiləri azaltmaqdan ötrü hökumət tədbirlər paketi hazırlayır. Yəqin ki, həmin tədbirlərdə manatın devalvasiyasının mənfi nəticələrinin mümkün sahələrdə aradan qaldırılması, digər yönlərdə müəyyən dərəcədə yumşaldılması istiqamətində tədbirlər olacaq:** "Ən əsası odur ki, devalvasiya mexanizminin işə düşməsi vasitəsilə 2015-ci ilin dövlət büdcəsinə daxil olacaq əlavə pul vəsaitləri hesabına sosial müdafiəyə daha çox ehtiyacı olanlara əvvəlkindən daha çox vəsait ayrılacaq".

**İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev isə mətbuata açıqlamasında yaranmış vəziyyətdə gərginliyi aradan qaldırmaq üçün əhalinin gəlirlərinin indeksasiya edilməsini çıxış yolu hesab edib:** "Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əmək haqqı, sosial müavinətlər artırılmalıdır, istehlak səbətinin dəyəri yenidən Nazirlər Kabineti tərəfindən müəyyən edilməlidir, minimum əmək haqqı kimi göstəricilərin hər biri yenidən işlənməlidir. Özəl sektor isə məcburdur ki, işçilərin əmək haqqını indeksasiya etsin. Əks halda, əmək məhsuldarlığı kifayət qədər aşağı düşəcək, sosial gərginlik insanların iş fəaliyyətinə təsir göstərəcək".

**Almaniyalı professor Vilfrid Furman isə müsahibəsində diqqətə çatdırıb ki, milli məzənnənin ucuzlaşdırılması ixraca şərait yaradır və eyni zamanda idxala yüklənməni gücləndirir:** "Belə olan halda idxal edilən malların qiyməti qalxır, alıcılıq qabiliyyəti enir, bununla, insanların yaşayış standartları aşağı düşür. Belə addımlarda sosial ölçülər nəzərdən qaçırılarsa, sosial gərginliyə gətirib çıxara bilər. Buna qarşı mütləq diversifikasiyalı iqtisadiyyat yaratmaq lazımdır".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015



# İrişə-irişə intihar videosu çəkənlərin ölkəsi

**Samir SARI**

**10 gün öncə sosial şəbəkədə kimsə yazmışdı ki, manatın məzənnəsinin dəyişdirilməsindən sonra baş verən intihar hallarının hamısı Mərkəzi Bankın prezidenti Elman Rüstəmovun vicdanına yazılmalıdır.**

Əlbəttə ki, bu, bir az mübahisəli söhbət idi. İndi Rüstəmovu müdafiə etmək kimi çıxacaq, amma gərək ədalətli olaq, axı bank rəhbəri əriylə dalaşdığına, babat döyüldüyünə görə özünü öldürən qadına görə cavabdeh ola bilməz.

Düzdür, dərinə getsək, həmin qadının əriylə məhz maddi sıxıntı üzündən dalaşdığını təsbit etmək, bu davada manatın avro və dollara nisbətdə dəyər itirməsinin önəmli rol oynadığına dair iddia irəli sürmək olar, amma gərək onu da deyək: Rüstəmov özbaşına deyil ki, manatı ucuzlaşdırsın, ya da bahalaşdırsın.

O boyda dövlət var, hökumət var, iqtisadi müşavirlər var, pul-para işinə baxan nazirlər var, hər şeyi ölçür, biçir, sonra da baş bankirə deyərlər, sür dərəyə, o da sürür. Ona görə də onları bir kənara buraxaraq, intihar edənlərin günahını Mərkəzi Bankın sədrinin vicdanına yazmağa cəhd etmək ədalətsizlik olar.

Hələ vicdanın yazı yazmaq üçün münasib müstəvi olub-olmadığını da bir kənara qoyaq. Keçən il Qafqaz şeyxi demişdi ki, bu yaşa çatıb, amma vicdanın nə olduğunu bilmir. Yəni şeyx demək istəmişdi ki, vicdan gözlə görünən bir şey deyil. Amma bu heç, bunun mətləbə dəxli yoxdur.

Əsas odur ki, intihar edən şəxsə görə kimsə cavabdehlik daşısın - istər qanun qarşısında, istərsə də öz vicdanı qarşısında.

Burda bir incə məqam da var: adam özü də qəbul etməlidir ki, bax, filan qədər adam onun üzündən (qərarına, hərəkətinə görə) intihar etdi. Əgər vəzifəli şəxs bu fikri özünə yaxın qoyursa, bu, sevindirici xəbərdir, demək, vicdanı var. Belə vəziyyətdə həmin vicdan mütləq sızlamalıdır. Yox, vəzifəli şəxs intihar edənlərə görə məsuliyyət daşıdığı fikrini özünə yaxın qoymursa, ya vicdanı yoxdur, ya da adam məsuliyyətsizdir. *(Hərçənd vicdanlı adam məsuliyyətli olmalıdır).*

Budur, dünən "LE" *(reklam və antireklam olmaması üçün adını çəkmirəm)* ticarət mərkəzinin damına çıxaraq intihar edəcəyi ilə təhdid edən, özünə xəsarət yetirən şəxs məsuliyyəti ədliyyə sektorunun üzərinə qoyub. Düzü, əvvəldə hamı intihar cəhdinin bank-maliyyə sektorunda baş verən dəyişikliklərə görə baş verdiyini düşünürdü, amma sonra bəzi mətləblər konkretləşdi.

Düzdür, həmin şəxsi xilas ediblər, amma bu, digər dövlət strukturlarını məsuliyyətdən azad etmir. Axtarsan, məlum olar ki, adamı dama çıxaran çoxlu səbəblər var - A-dan Z-yə qədər.

Belə vəziyyətlərdə adətən deyirlər: "Filankəsin ölümünə görə cəmiyyət günahkardır, onu biz öldürdük" və s.

Əslində bu da köhnə demaqogiyadır, sözgəlişi deyirlər. İmtahan üçün, o sözü çox deyənlərə dirəşin, üç dəfə dalbadal deyin ki, bəli, düz deyirsən, filankəsin ölümündə sən günahkarsan, gör, sənə necə cavab verir. Vallahi, adamın yaxasından yapışarlar ki, filankəsin ölümündə günahkar olmağıma dair əlində sübutun varmı. Məhkəməyə, prokurorluğa verərlər adamı.

Əməkdaşımız danışır ki, "LE"un damına çıxıb öz əzalarını kəsə-kəsə qışqıran, intiharın bir addımlığında olan şəxsə aşağıdan tırka verənlər varmış, öz mobil telefonlarındakı videokameranı qoşub yuxarıya təklif verirmişlər ki, at özünü, at.

Kişinin uşağı realiti intihar videosu çəkib paylaşacaqlarmış, Youtube-yə qoyacaq, fenomen olacaqlarmış, "Feysbuk"da paylaşıb layk yığacaqlarmış...

Bələlərini, Məşədi İbad demişkən, yerə yıxıb ağzına-ağzına vurasan, həm də geyilmiş qaloş tayıyla. Adam orda can hayındadır, bu burda videosüjet dərdi çəkir.

Söz yox, yenə deyəcəklər ki, adam artistlik eləyib. İlk baxışdan elə görünür, doğrudan da olayda dramatizm, intihar edənin hərəkətlərində isə artistizm elementləri olub. Amma adamın öz bədən üzvlərinə yetirdiyi xəsarətlərə baxanda bilinir ki, bu cür artistlik olmur. Kaskadyorluq ola bilər, amma artistlik yox.

Adam xırtdəyə qədər problemin önündə acizdir, gücü yalnız özünə çatır. Sadəcə, məsələni birdəfəlik həll etməyə cəsarəti çatmır. Bu da ki, bildiyiniz kimi, hər adamın işi deyil.

# "Azadlıq-2015" deputatlığa namizədlərini müəyyənləşdirir

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn daxil olduğu "Azadlıq-2015" seçki blokunun parlament seçkilərinə hazırlığı və fəaliyyəti barədə "Yeni Müsavat"a açıqlama verib. O qeyd edib ki, "Azadlıq-2015" seçki blokunun yaradılması parlament seçkilərinə hazırlıq istiqamətində atılmış ciddi addım sayılmalıdır.**

Artıq blokun seçki qərargahı yaradılıb. Seçki qərargahının sədri, üzvləri seçilib, fəaliyyəti və iş planı tutulub. Mütəmadi olaraq blokun Siyasi Şurası toplanır. "Azadlıq-2015" seçki blokunun seçki platformasının hazırlanması üçün iş aparılır. P.Hüseyn qeyd etdi ki, digər siyasi qüvvələrlə, ictimai təşkilatlarla, ayrı-ayrı şəxslərlə əməkdaşlığın müxtəlif istiqamətləri üzrə məsləhətləşmələr gedir. Blokun deputatlığa namizədlərinin müəyyənləşməsi prosesi başlayıb: "Namizədlər təxminən məlumdur. Seçki blokunu yaradan partiyaların sədrlərinin namizədliyinin hansı dairələrdən irəli sürülməsinin dəqiqləşdirilməsi istiqamətində də fəaliyyət davam etdirilir. Namizədlərin yerlərdə reytinqinin öyrənilməsi üçün təhlillər aparılır, iş gedir".



**Pənah Hüseyn:** "İddialıların yerlərdə reytinqinin öyrənilməsi üçün təhlillər aparılır"



**Mirmahmud Mirəlioğlu:** "Seçki blokunun qapıları bütün partiyaların üzünə açıqdır"

**AXP sədrinin sözlərinə görə, eyni zamanda azad və ədalətli seçki mühitinin formalaşması üçün istər müxalifət təşkilatları ilə məsləhətləşmələr, istərsə də iqtidar təmsilçiləri ilə aparılan təmaslarda fikir mübadiləsi aparmaq aktualdır:** "Hazırda əsas prioritet olaraq hansı islahatların aparılması məsələsi müzakirə edilir ki, hakimiyyət təmsilçisi ilə növbəti görüşdə bu məsələnin müzakirəyə çıxarılmasının məqsədəuyğunluğu nəzərdə tutulur. Biz hesab edirik ki, hazırkı siyasi mühit azad və ədalətli seçkilərin keçirilməsini təmin etmir. Ona görə də prioritet məsələ azad və ədalətli seçki mühitinin yaradılması, bu sırada seçki komissiyalarının yenidən formalaşması kimi məsələlərdir".

P.Hüseyn onu da dedi ki, "Azadlıq-2015" seçki blokunun mart ayında aksiyalar keçirməsi istiqamətində müzakirələr aparılmayıb və aparılmır.

"Azadlıq-2015" seçki blokuna daxil olan KXCP-nin sədri Mirmahmud Mirəlioğlu da bildirib ki, blokun seçkiyə hazırlıq istiqamətində çalışmaları davam edir: "Dairələrdə namizədlər müəyyən edilib. Seçki qərargahı da namizədləri müəyyən edib. Hazırlıqlar davam edir".

**KXCP sədri onu da deyib ki, seçki blokunun qapıları bütün partiyaların üzünə açıqdır. Kim istəsə, bloka qoşulmaq üçün müraciət edə bilər:** "Müraciət tərəfimizdən dəyərləndiriləcək. Hesab edirəm ki, cavabımız müsbət olacaq. Siyasi partiya rəhbərləri ilə görüşlərimiz, müzakirələrimiz davam edəcək. Bununla bağlı mövqeyimiz də, əməlimiz də ortadadır".

Qeyd edək ki, "Azadlıq-2015" seçki blokunu 8 partiya yaradıb.

**❑ Etibar SEYİDAĞA**

# Azərbaycan Rusiya səfindəmi yer alıb?

## Hakimiyyət qəzetində antiamerikan yazının dərci iki paytaxt arasındakı gərginliyin pərdəarxası barədə ehtimallar ortaya çıxarıb; ekspertlərin maraqlı yanaşması var…

**Bir neçə aylıq "atəşkəs"dən sonra ABŞ-Azərbaycan münasibətlərində gərginlik yenidən baş qaldırıb. Dünənki sayımızda bununla bağlı baş məqalədə yazmışıq. Görünən budur ki, ABŞ səfirinin bir ayı tamam olmamış "atışma" yenidən intensivləşməyə başlayıb. Bəzi müşahidəçilər "atəşkəs"in pozulmasını Azərbaycanın Rusiya səfində yer alması ilə izah edir.**

**Lakin "Turan" agentliyinin direktoru Mehman Əliyev əksinə düşünür:** "Məncə, Azərbaycan indi Avropaya daha çox meyllənməyə başlayıb. Xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin Brüsselə səfəri də onu göstərir ki, Beynəlxalq Ticarət Təşkilatına üzvlüklə bağlı proses intensivləşib. Həmçinin Avropa Birliyinin Riqa sammiti yaxınlaşır. Fikrimcə, Bakı ilə Vaşinqtonun münasibətlərdə gərginliyin olması, sadəcə, görüntü yaratmaqdır. Tərəflər görüntü yaratmaq istəyirlər ki, münasibətlərdə gərginlik var. Bununla da Rusiya təhlükəsini uzaqlaşdırmaq istəyirlər. Digər tərəfdən, göstərmək istəyirlər ki, Azərbaycan prezidenti tam müstəqil siyasət həyata keçirir, heç kəsdən asılı deyil".

**M.Əliyev hesab etmir ki, Bakıya assosiativ sazişi imzalamaq istəməməsi ilə bağlı təzyiqlər artıb:** "Orada assosiativ yox, strateji modernləşmə haqqında sazişin imzalanması gözlənilir. Bu da Qərbi razı salır və güman edirəm ki, bu sənəd imzalanacaq".

**Politoloq Elxan Şahinoğlu ABŞ-ın tənqidinin əleyhinə olmadığını vurğuladı:** "Ancaq Amerikanı tənqid dövlət siyasətinin tərkib hissəsinə çevrilərəndə istər-istəməz suallar yaranır ki, bu yazıları kim sifariş edir. "Azərbaycan" qəzetində son iki ayda prezident Barak Obamanın sərt tənqidinə həsr olunan ikinci yazısının dərcini təsadüfi saymıram. Yanvarda dərc olunan yazı belə də adlanırdı: "Barak Obamanın ikiüzlüyü". Həmin yazının yazıldığı günlərdə Bakı ilə Vaşinqton arasında soyuq küləklər əsirdi. Ancaq indi vəziyyət dəyişib, amerikalı rəsmilər Azərbaycanın maraqlarına uyğun açıqlamalar səsləndirirlər. Deyirlər ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar azad olunmalı və girov saxlanılan iki Azərbaycan vətəndaşı sərbəst buraxılmalıdır. Hansı rusiyalı diplomat oxşar açıqlama verib? Yeni səfir Bakıya gəlib və əməkdaşlığı inkişaf etdirmək üçün ümidverici açıqlamalar səsləndirir. Vaşinqton Azərbaycanın bölgədəki roluna önəm verdiyindən münasibətlərə yeni nəfəs gətirmək istəyir. Amerika ilə münasibətlərin gərgin qalması Azərbaycanın da milli və təhlükəsizlik maraqlarına cavab vermir. Viktoriya Nuland fevralda Bakıya gələrək Azərbaycanın Avropaya qaz çatdırma planını yüksək dəyərləndirmişdi. Bundan sonra Azərbaycan rəsmiləri anti-Amerika ritorikasını yumşaltdılar. Azərbaycan parlamentində Azərbaycan-ABŞ münasibətlərinə həsr olunan dinləmələrdə kəskin fikirlər səslənmədi. Buna baxmayaraq, "Azərbaycan" qəzeti yenidən Barak Obamanı hədəf seçdi. Görünür, Bakıda kimlərisə Amerikanın "Washington Post" qəzetində Azərbaycan hakimiyyətinin tənqid edən yazı narazı salıb. ABŞ demokratik ölkədir, qəzetləri bir gün Azərbaycan hakimiyyətini tənqid edərlər, o birisi gün tam tərsinə, Azərbaycanın bölgədə oynadığı rola diqqət yetirərlər. Obama medianın nə yazacağını müəyyənləşdirmir. Ancaq rəsmi qəzetlər Obamanı və Amerikanı yerdən yerə vurarkən bir Rusiyaya da nəzər salsınlar. Məgər Kremlin yürütdüyü siyasət, Ermənistanı silahlandırması, burada hərbi bazalarını modernləşdirməsi bizim xoşumuza gəlir? "Azərbaycan" qəzeti bircə dəfə də bundan yazsın, onda deyim ki, dövlət qəzeti hamıya eyni gözlə baxır. Rusiya prezidenti Vladimir Putin Krımı işğal edib, Ukraynanı parçalayaraq, orada ikinci Qarabağ yaradıb, separatçılara dəstək verir, Azərbaycan rəsmi mətbuatından səs çıxmır. Çünki Amerikanı tənqid etmək asandır, Rusiyadan nəsə yazmaq üçün isə icazə almaq lazımdır. Amerika ilə Rusiyanın fərqi də bundadır".

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov da Azərbaycanla ABŞ arasında elə bir gərginliyin olmadığını dedi:** "Sadəcə olaraq, hər kəsin öz fikri, düşüncəsini var və bunu da mətbuatda ifadə edir. Məsələn, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Kozlariç Vaşinqtonda nəsə çıxış edəndə bəzi müxalifət təmsilçiləri bunu dövlətin mövqeyi kimi təqdim etməyə çalışır. Yaxud hansısa QHT bir bəyanat verir, baxırsan ki, o təşkilatın idarə heyətində ermənilər təmsil olunur. Ancaq Azərbaycandakı müxalifət qəzetləri və partiyaları bunu Amerika dövlətinin Azərbaycana qarşı mövqeyi kimi təqdim edir. Bizdə də elələri var ki, ABŞ-Azərbaycan münasibətlərinin yaxşı olmasını arzulamır". S.Novruzov Azərbaycan parlamentinin rəsmi orqanı olan qəzetdə Obama əleyhinə yazının dərcinə isə fərqli yanaşdı: "Bu, həmin mətbu orqanın mövqeyidir. Bunu dövlətin, yaxud parlamentin adına aid etmək olmaz".



Mehman Əliyev

**YAP-çı deputat Bakının Rusiyaya yaxınlaşma xətti götürdüyü fikri ilə də razı deyil:** "Biz nə kiməsə yaxınlaşırıq, nə də kimdənsə uzaqlaşırıq. Biz hər bir dövlətlə bərabər şəkildə öz münasibətlərimizi qoruyub-saxlayırıq. Dəfələrlə Ukrayna ilə bağlı məsələdə Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib. Yaxud Avropa Şurasında Rusiya ilə bağlı qətnamə qəbul olunanda biz bəyan etdik ki, belə bir sənəd ilk növbədə Ermənistana qarşı tətbiq olunmalıdır. Çünki Ermənistan işğalçı dövlətdir, nə üçün ikili standartlarla yanaşırsınız, birinə tətbiq edirsiniz, digərinə yox?"

**❑ E.PAŞASOY**

## MTN və DİN dövlət çevrilişinə hazırlaşan radikalları həbs etdi

# Varlılara və “kafirlər”ə divan tutmaq istəyən dəstə tutuldu - təfərrüatlar

Dəstə üzvləri “qanını və malını” özlərinə “halal” bildikləri müxtəlif zəngin şəxsləri qarət etməyi və hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı sui-qəsdlər planlaşdırıblar; demokratik qüvvələrin sıxışdırılaraq meydandan çıxarılması radikal dini cərəyanlara üz tutanların sayını niyə artırır...

**Bir neçə gün əvvəl Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi xüsusi əməliyyat nəticəsində həbs edilən radikal dindarların Azərbaycanda “şəriət qaydaları ilə idarə olunan dövlət qurmaq” məqsədilə ölkədə sabitliyi pozmaq üçün terror aksiyaları planlaşdırdıqları məlum olub. Xatırladaq ki, bir neçə gün əvvəl MTN bu dəstənin yalnız bir neçə üzvünün konkret olaraq ötən ilin noyabrında Qəbələdə “Soyuq bulaq” restoranının sahibinin öldürülməsi faktı ilə bağlı etiraflarını və görüntülərini yaymışdı. MTN-in martın 4-də yaydığı geniş məlumatda isə bildirilir ki, bu adamlar əslində mütəşəkkil dəstə yaradaraq “cihad etmək” üçün bir sıra hazırlıqlara başlayıb, hətta tabe olacaqları “əmir” də təyin ediblər.**

Rəsmi məlumatda deyilir ki, həbs edilənlər Azərbaycan vətəndaşları - Xəlilov Niyaməddin İltifat oğlu, Bəyimov Rufis Əhməd oğlu, Həşimli Rəşad Şövkət oğlu, Musayev İlqar Fikrət oğlu, Rzayev Anar Rza oğlu və Abdullayev Ceyhun Fazil oğlu silah və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə əhali arasında vahimə yaratmaq üçün bir sıra partlayışlar və yanğınlar törətməyi planlaşdırıblar.

Dəstə üzvləri “cihad” üçün əvvəlcə pul vəsaiti əldə etmək məqsədilə “kafir” hesab etdikləri varlıları hədəf seçiblər. “”Qanını və malını" özlərinə “halal” bildikləri müxtəlif zəngin şəxsləri qarət etməyi və əldə olunacaq vəsait hesabına hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı sui-qəsdlərin və ölkə ərazisində terrorçuluq aksiyalarının həyata keçirilməsini planlaşdırıblar" deyə, rəsmi məlumatda bildirilir.

Pul əldə etmək məqsədlə radikal dəstə üzvləri Mərdəkan qəsəbəsindəki bağ evlərindən birini qarət ediblər. MTN-in məlumatında söhbətin Mərdəkandakı hansı varlının bağından getdiyi açıqlanmır. Amma məlumdur ki, burada xeyli sayda məmur və tanınmış adamların da bağ evləri var.

Dəstənin üzvləri, yuxarıda da qeyd etdiyimiz kimi, 2014-cü ilin noyabr ayının 24-də Qəbələdəki “Soyuq bulaq” restoranının sahibini amansızlıqla qətlə yetiriblər. Ölkədə ciddi əks-səda doğuran bu qətllə bağlı onu xatırladaq ki, 47 yaşlı Vahid Vahabovun gecəyarısı evinə soxulan maskalı dəstə üzvləri ona yatağından qalxmağa belə imkan verməyiblər. Hadisə vaxtı evdə V.Vahabovun həyat yoldaşı da olmuşdu və qətl onun gözü qarşısında baş vermişdi. Həmin vaxt yayılmış məlumatda o da bildirilirdi ki, V.Vahabov hadisədən bir neçə gün öncə “Prado” markalı maşınını satıbmış. Lakin dəstə basqında əlinə heç nə keçirə bilməyib.

MTN xəbər verir ki, dəstə üzvləri yenə noyabr ayının sonunda gecə Əhmədli qəsəbəsində və Binəqədi rayonu ərazisində yerləşən ticarət obyektlərinə qanunsuz daxil olaraq oradan xeyli miqdarda müxtəlif ləvazimat, ərzaq məhsulları, eləcə də çoxlu sayda sim-kart oğurlayıblar. 2015-ci ilin fevral ayında isə dəstə üzvləri Sumqayıt şəhərində “VAZ 2106" markalı avtomobili oğurlayaraq, həmin avtomaşınla əvvəlcədən planlaşdırdıqları quldurluq əməlini törətmək məqsədilə Göyçaya gəliblər. Lakin özlərindən asılı olmayan səbəbdən cinayəti həyata keçirə bilməyib, qaçırdıqları avtomaşını isə ehtiyat hissələrinə ayıraraq sonradan satıb pulunun onlara çatdırılması üçün Ağdaş rayonundakı tanışlarından birinin həyətində saxlayıb və taksi ilə Bakı şəhərinə qayıdıblar.

Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilən antiterror tədbirləri nəticəsində mütəşəkkil dəstə zərərsizləşdirilib və məhkəmənin qərarı ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

Keçirilmiş baxış nəticəsində onların üzərindən və yaşadıqları mənzillərdən 4 ədəd “Makarov” tipli tapança, 1 ədəd “TT” tipli tapança, 5 ədəd tapança darağı, 35 ədəd



patron, 1 kiloqrama yaxın trotil şaşkası, 2 ədəd “RQD-5" tipli əl qumbarası aşkar edilərək götürülüb. Faktla bağlı Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Baş İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 28,214.2.1-ci, 28,214.2.3-cü maddələri ilə cinayət işi qaldırılıb.

Dəstənin digər iştirakçılarının müəyyən olunması üçün istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***

MTN mütəmadi olaraq Azərbaycanda sabitliyi poza biləcək radikal dini çevrələrdə həbslər aparır və son aylar xüsusilə Suriya və Pakistanda qeyri-qanuni silahlı dəstələrdə vuruşmuş Azərbaycan vətəndaşlarının saxlanılması da buna sübutdur.

Bəzi ekspertlərin iddialarına görə, demokratik müxalifətin sıxışdırılması və zəifədilməsindən sonra radikal dindarların Azərbaycanda hakimiyyəti zorla dəyişdirmək meylləri ciddi şəkildə artıb. Bu təhlükəli tendensiya Azərbaycana dost olmayan ölkələrin radikal dindarlar vasitəsilə ölkəmizə müdaxiləyə həvəsləndirib. Konstitusiyalı respublika quruluşuna malik Azərbaycanda “şəriət dövləti qurulması” ideyasının da “xaricdən idxal” olunduğu şübhəsizdir.

Demokratik qüvvələrin sıxışdırılaraq meydandan çıxarılması radikal dini cərəyanlara üz tutanların sayını da, onların cəlbediciliyini də artırır. Bu səbəbdən Azərbaycan qana bulamaq istəyənlərə də xaricdən maraq artır, onlar tez təsir altına ala bilirlər, ölkəmizdə öz çirkin məqsədlərini həyata keçirmək üçün hətta silahla belə təmin edirlər.

Bu kimi radikal adamların qruplaşaraq mütəşəkkil dəstələrə yaratması və sabitliyi pozmaq cəhdləri daha çox Azərbaycanda beynəlxalq miqyaslı tədbirlərin başlaması dövrünə təsadüf edir. Məlum olduğu kimi, 2012-ci ildə “Eurovision” mahnı yarışması ərəfəsi də Bakıda terror aktlarına cəhdlər oldu, bir neçə nəfər həbs edilərək məhkəmə qarşısına çıxarıldı. Hətta sələfilərə qarşı keçirilən əməliyyatların birində təhlükəsizlik orqanları itki də verdi.

Cəmi 99 gün sonra Bakıda Avropa Yay Oyunları start götürəcək. Məlum olduğu kimi, bu tədbirə hakimiyyət çox böyük önəm verir və ciddi təhlükəsizlik tədbirləri görür. Qeyd edək ki, 17 gün davam edəcək tədbirdə 10 minədək rəsmi şəxslərin, 6000-dən çox idmançının iştirakı gözlənilir.

Hazırda regiondakı mövcud şərtlər, xüsusən Azərbaycanı hədəf alan bir neçə bəyanat yayan İŞİD-in “əl-ayağının” hələ də tam yığılmaması, təbii olaraq bu kimi yarışlarda təhlükəsizlik, ictimai asayişin qorunması məsələsini daha da aktuallaşdırır. Martın 4-də polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində bu dəstənin daha 4 üzvünün həbs edildiyini açıqlayıblar. Onlardan da 5 ədəd əl qumbarası, 1 tapança, 160 müxtəlif çaplı patron tapılaraq götürülüb və müvafiq qaydada sənədləşdirilib.

Belə görünür ki, ölkə daxilində radikal dini çevrələrə qarşı mübarizə qarşıdakı günlərdə daha da gücləndiriləcək.

❑ **“Yeni Müsavat”**

# İşçi Qrupun əfvlə bağlı siyahısı hazırdır

## **Novella Cəfəroğlu:** “Novruzda əfv olacağına ümidlərimiz böyükdür”

**Novruz bayramında əfv olacağı ilə bağlı ümidlər daha da artıb. İnsan Haqları üzrə Beynəlxalq İşçi Qrupunun Əfv Komissiyasına təqdim etmək üçün siyahısı tam hazırdır. Sənəddə əfv müraciəti yazan və yazmayan, xəstə, qanunsuzluqlarla üzləşən məhbusların adlarından ibarət ayrı-ayrılıqda cədvəllər yaradılıb.**

**İşçi Qrupunun üzvü Novella Cəfəroğlu** martın 10-15-i arasında toplantılarının keçiriləcəyini bildirdi: “Ümid edirik ki, martın 10-15-dək İşçi Qrupu tam tərkibdə yığışacaq. Hər şey Avropadan gələn nümayəndədən asılıdır. Biz onun iş rejiminə uyğun hərəkət edirik. Siyahılarımız hazırdır. Jurnalist, xəstə, əfv yazan və yazmayan məhbuslar ayrı-ayrılıqda siyahılar üzrə verilib. Toplantımızda bunlar müzakirə olunacaq. Bundan əlavə, QHT-lərin son durumu da müzakirə olunacaq. Gündəlik hazırlayıb göndərmişik. Novruzda əfv olacağına böyük ümidlərimiz var. Fərdi insanların çoxlu sayda bizə müraciətləri var. Biz onların da məsələsini qaldıracağıq”.

**Hüquq müdafiəçisi İşçi Qrupunun son üç ayda toplantısının keçirilməməsi məsələsinə də aydınlıq gətirdi:** “Biz demişdik ki, iki aydan bir toplaşaq. Yanvarda görüşməli idik. Amma iş fasilələrinə görə yığışa bilmədik. Bilirsiniz ki, Avropada yanvarın 15-dən sonra iş başladı. Buna görə avropalı nümayəndə toplantıda iştirak edə bilmirdi. Parlamentdə olanların qış tətili oldu. Ona görə görüşümüz təxirə salındı. Biz bunlardan asılıyıq. Amma biz daim görüşlər keçiririk. Rüstəm Usubov, Faiq Qurbanov, Azay Quliyev və digərləri ilə görüşmüşük. Leyla xanımla bağlı, İntiqam Əliyevin müayinəyə aparılması kimi məsələlər qaldırmışıq. Sadəcə, mətbuata açıqlamalar vermirik. İşimiz daim var”.

Qeyd edək ki, hazırda bəzi məhbusların məhkəmələri davam edir. Onların əfvə düşmək şansları yoxdur. İntiqam Əliyev, Rəsul Cəfərov, Fərəc və Sirac Kərimli qardaşlarının adlarını qeyd etmək olar.



Novella Cəfəroğlu

Martın 4-də Apelyasiya Məhkəməsində həbsdəki gənc fəal Orxan Əyyubzadənin məhkəmə hökmündən verilən şikayətinə baxılıb. Məhkəmə hökmü qüvvədə saxlayıb.

Bu barədə musavat.com-a prosesdə iştirak edən Müsavat funksioneri Tural Abbaslı məlumat verib.

Martın 5-də isə Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Haqları Klubunun sədri Rəsul Cəfərov və müsavatçı məhbus Sirac Kərimlinin növbəti məhkəmə prosesləri olacaq.

**Vəkil Nemət Kərimli Müsavat başqanının müavini Fərəc Kərimlinin məhkəmə prosesinin gününün müəyyən olduğunu da qeyd etdi:** “Proses martın 11-də saat 16:00-da olacaq”.

Həbsdəki hüquq müdafiəçisi Leyla Yunusun həbs-qətimkan tədbirinin müddətinin 5 ay uzadılması ilə bağlı apelyasiya şikayəti verilib. Yaxın günlərdə onun müraciətinə baxılacaq. Vəkil Elçin Qəmbərov hüquq müdafiəçisinin səhhətinin günü-gündən ağırlaşdığını bildirdi.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015



# Kim haqlı çıxdı?..

Hüseynbala SƏLİMOV

**Düşüncələr hələ də rusiyalı müxalifətçi Boris Nemtsovla məşğul ikən başqa mövzuya adlamaq bir az çətindir. Amma ortalıqda bir müxalifətçilik və müxalifət məsələsi də var. Elə bir məsələ ki, bəlkə də elə Boris Nemtsovun taleyində də o, həlledici amil kimi çıxış etdi...**

Amma bu yazıya digər iki amil təkan verdi. Biri budur ki, martın 3-ü həm də beynəlxalq yazıçılar günü idi. Həmin gün avtobusla gələrkən gözüm qarşıdakı bir oğlanın əlindəki kitaba sataşdı. Təkcə müəllifin adını oxuya bildim: bu, Milan Kunderanın kitabı idi...

Bilmirəm, həmin roman idimi, yoxsa başqası, amma bu, mənim yadıma o yazıçının bir neçə il bundan əvvəl oxuduğum əsərini saldı. Həqiqətən də çox möhtəşəm əsər idi...

O vaxt bu əsəri oxuyandan sonra müxalifət liderlərindən biri ilə söhbətim oldu.

Ona əsər haqqında danışdım. Etirazım yoxdur, dinlədi... Amma həmin əsərdən mən aldığım "elektrik"i deyəsən ona ötürə bilmədim... Mənim isə böyük "plan"ım vardı. İstəyirdim ki, əsəri tərcümə edim. Məqsədim də onun dərci üçün həmin müxalifət liderindən bir az "pul qoparmaq" idi... Amma alınmadı...

Əsər sosialist düşərgəsi ölkələrindən birinin dissidentləri ilə bağlı idi. İnsanlar öz prinsiplərindən vaz keçmədiklərinə görə min bir çətinliklə qarşılaşırlar...

Sonradan həmin əsər əsasında çəkilmiş filmə də baxdım. Amma etiraf edim ki, kitabdan aldığım ilk təəssürat məni uzun müddət tərk etmədi...

Dünyada kitablar çoxdur. Elə siyasilər, dissidentlər və inqilabçılar haqqında da az yazılmayıb. Onların hər birinin öz yeri var...

Amma kitab var ki, tale kimidir. İlk baxışda adam hətta müəyyən edə də bilmir ki, bu, nədir, sən bu kitabı yaşayırsan, yoxsa kitab sənin barəndədir?..

Bunu şişirtmə kimi qəbul etməyin. Azərbaycan müxalifətinin düz 25 illik müxalifətçilik "stajı" var. Bu, əsrin dörddə biri deməkdir. Bu illərdə nələr və kimlər olmayıb, insanlar nələrdən keçməyib?..

Amma həmişə bir xətt də olub, özü də zolaq kimi tünd rəngli xətt. Eləleri olub ki, onların yolu həbs yerlərindən keçməyib, amma bu adamlar uzun, üzücü və bir az da yorucu dissidentlik həyatı yaşayıblar...

İlk baxışda bu, elə də çətin bir iş kimi fərz olunmur. Amma inanın, həyatda ən çətin iş bəlkə də ev dustağı olmadan ev dustaqlığını yaşamaqdır...

Bir az əvvəldə bir müxalifət lideri ilə görüşdən bəhs etdik. Hər gün ev və bir də partiya qərargahı - onun da gündəlik marşrutu elə belə idi...

Əgər bəxti gətirirdisə və kimsə onun yanına "siyasi qeybət" etməyə gəlirdisə onları qəbul edirdi, günü belə başa vururdu. İndi bu adamın heç altmış yaşı da yoxdur, daha heç partiya lideri də deyil, vaxtının çoxunu da evdə keçirir...

Amma o vaxt mənim Milan Kunderanın əsərindən aldığım təəssüratı bölüşmədi. Hətta dedi ki, Azərbaycanda belə olmayacaq... İndi kimin haqlı və dürüst çıxmasının elə bir əhəmiyyəti yoxdur. Hətta çox istərdik ki, o, haqlı çıxsın və bizə daha "həftə səkkiz, mən doqquz" ev dustaqlığını yaşamaq qismət olmasın...

İnsanlar, ictimai fəallar bu boşluğu, bu yeknəsəqliyi qeyri-hökumət təşkilatları qurmaqla doldurmağa cəhd edirdilər. Bəzisində alınırdı da. Min bir əzabla öz layihələri üçün qrant udur, sonra bir mənzil kirayələyir və bununla da öz şəxsi həyatını yaşamağa çalışırdılar...

Amma indi bu yol da "nəzarət"ə götürülüb. Daha qeyri-hökumət təşkilatları qurmaq və onları işlətmək də elə də asan iş deyil...

Milan Kunderanın bəhs etdiyim romanının qəhrəmanı cərrah idi. Bu adam bir bəyanatın, bir imzanın "qurban"ı olur, əgər təbii ki, buna "qurban" demək mümkün idisə, çünki o, özü könüllü olaraq bu yolu seçir. Hökumət adamları o adama dəfələrlə imzasını geri götürməyi təklif edir və bunun müqabilində yenə də əvvəlki həyatı və karyeranı qaytaracaqlarını vəd edirlər...

Amma o, razı olmur. Bəlkə də ona görə ki, əvvəlki həyat onun gözündə özünü tamam ifşa etmişdi, dəyərini itirmişdi? Güman ki...

İndi nə qədər çətin olsa da, azərbaycanlı siyasilər, ictimai fəallar da əvvəlki o həyatın qayıtmasını istəmirlər. Buna Musa peyğəmbərin vaxtında Misir toxluğu və asudəliyi deyirdilər, yəhudilər onu unutsun deyə, Musa onları düz 40 il səhrada dolandırır...

Elə bizim ictimai fəalların, siyasilərin də "səhra təcrübəsi" az deyil. Bir az əvvəldə qeyd etdik ki, bu müxalifətçilik çox çəkdi, artıq 25 il keçib... Heç kim bu 25 ilin peşmançılığını çəkmir. Bu, salnamədə adamı təəccübləndirən əsas məsələ də elə budur...

**Milli Şura 15 marta təyin etdiyi mitinqə hazırlaşır. "Talançılığa son!" şuarı ilə keçiriləcək mitinqdə kütləviliyin təmin edilməsi üçün sosial şəbəkədə qurum üzvləri çağırışlar edirlər. Mili Şura mitinqi "İnşaatçılar" metro stansiyasının yaxınlığındakı "Məhsul" stadionunda keçirmək istəyindədir. Mitinqdə kütləviliyin necə olacağı ilə bağlı müxtəlif proqnozlar və fikirlər irəli sürülməkdədir.**

# Milli Şuranın mitinqi ilə bağlı bədbin proqnozlar

## Tanınmış siyasətçilər və neytral ekspert kütləviliyin olacağına inanmırlar; "Təbii ki, aksiya sosial sifariş olmadığı üçün mitinqdə az sayda insan iştirak edəcək"


Rəsul Quliyev


Sərdar Cəlaloğlu


Natiq Miri

**Məsələn, eks-spiker Rəsul Quliyev moderator.az-a açıqlamasında deyib ki, mitinqə 10 mindən az adam çıxsa, bu, hakimiyyətin xeyrinə işləyəcək:** "Moskvada 10 milyon adam yaşayır, Nemtsovun qətli ilə bağlı aksiyaya 100 mindən az olmayan insan kütləsi qatılıb. Bunu bütün nüfuzlu təşkilatlar, o cümlədən xarici agentliklər yazır. Bakıda isə 3,5 milyon insan yaşayır, deməli, Moskva səviyyəsinə çatmaq üçün mitinqə 35 min adam çıxmalıdır. Əgər Moskvadakı aksiyanı bütün Rusiyaya *(143 milyon əhalisi var)* aid edib Azərbaycanla *(9.5 milyon əhalisi var)* müqayisə etsək? Azərbaycanda 6300 adam çıxmalıdır. Və ya Azərbaycanı bütövlüklə Moskva ilə müqayisə etsək həmin 100 min mitinqə çıxmalıdır. Manatın məzənnəsinin dəyişməsi ilə əlaqədar qiymətlərin qalxması əleyhinə mitinq keçirmək istəyənlər böyük bir məsuliyyəti üzərlərinə götürürlər. Ola bilər bu məsuliyyətin nədən ibarət olduğunu başa düşmürlər, mən məcburam bir daha izah edəm. Keçirəcəkləri mitinqə 10 mindən az adam gəlsə, bu, hökumətə "qorxma, bu siyasətini davam etdir" mesajını göndərmək olacaq. Və sözsüz, hökumət qiymətləri qaldırmaq, manatın məzənnəsini aşağı salmaq siyasətini daha inamla həyata keçirəcək. Əgər mitinqə 1000 adamdan az çıxsa, qiymətlərə dəyişiklik mitinqin sabahı günü başlaya bilər. Hökumət camaatın onun siyasətini dəstəkləyir illüziyasına özünü inandıracaq və xalq müxalifəti dəstəkləmir faktorunu bir tərəfə qoyacaq. Bu isə reallıqdan uzaqlaşmaq deməkdir. Bu da lokal çaxnaşmalara yaxınlaşmaq anlamına gələcək".

**Milli Şurada dominant rolunu oynayan AXCP-nin sədri Əli Kərimli isə 15 mart mitinqinə qatılmaq üçün çağırış edib. Facebook səhifəsində xalqa ünvanlanan çağırışda deyilir ki, Milli Şura mitinqi insanların suallarına və tələblərinə əsaslanıb təyin ediblər:** "Çoxunuz haqlı olaraq sual etdi ki, bu əsrin soyğunçuluğuna yalnız yazmaq və danışmaqlamı etiraz edəcəyik? Bəs meydanlara çıxmayacağıqmı?"

Biz hökumətin gecə qərətindən yazdıq. Manatı ucuzlaşdırmaqla evlərimizə, ciblərimizə, bank hesablarımıza girib hər birimizi 33 faiz kasıblatmağını sərt sözlərlə qınadıq. Sizlərin bir çoxu da haqlı olaraq sual etdi: Bu əsrin soyğunçuluğuna yalnız yazmaq və danışmaqlamı etiraz edəcəyik? Bəs meydanlara çıxmayacağıqmı? Biz yazırıq, tənqid edirik, ittiham edirik, izahat istəyirik. Hökumət susur, heç bir izahat vermir. Sizin də xeyliniz sual verirsiniz ki, xalqımıza qarşı bu təhqiramiz münasibətədəmi etirazımız yalnızca kompüter monitorları arxasından olacaq? Etiraz mitinqi keçirməyəcəyikmi? Bu qarətə, talana, xalqa qarşı etinasızlığa hamılıqla etiraz etməyin vaxtı deyilmi? İndi də etiraz etməyəcəyiksə, bəs nə zaman edəcəyik?"

**ADP sədri Sərdar Cəlaloğlu isə hesab edir ki, bu, populizmdir. Son zamanlar ölkədə müəyyən iqtisadi proseslər yaşanır:** "Bundan istifadə edərək aksiya keçirmək istəyirlər. Təbii ki, aksiya sosial sifariş olmadığı üçün mitinqdə az sayda insan iştirak edəcək. Sadəcə, Milli Şura mitinq keçirməklə özünün varlığını sübuta yetirmək istəyir. Bundan başqa bir şey deyil. Bu, əslində özünün mövcudluğu üzərində bir mübarizədir. Müxalifətdə birincilik uğrunda mübarizə ola bilməz. Hansı keyfiyyətə görə deyilə bilər ki, mən birinciyəm, sizdən öndəyəm? "Mənim 10 min üzvüm var" deməklə deyil. Siyasət odur ki, sən xalqın taleyi ilə bağlı düzgün qərarlar verə biləsən, siyasi gündəmi müəyyən edəsən. İndi bunlar manatın devalvasiyasına görə mitinq edir. Ancaq nəzərə alın ki, manatın devalvasiyasını hökumət həyata keçirib. Başqa sözlə, situasiyanı və gündəmi hökumət yaradıb. İndi hökumətin yaratdığı gündəmlə bağlı mitinq keçirməyin müxalifətçiliyə nə dərəcə ciddi əhəmiyyəti var? Hesab edirəm ki, Milli Şuranın mitinqinə maksimum 1500 nəfər qatılacaq. Kütləvilik üçün aksiyanı yaxşı təşkil etmək və pul qoymaq lazımdır".

**Bəs neytral siyasi ekspert bu barədə nə düşünür, mitinqdə kütləvilik hansı həddə ola bilər?**

**Siyasi ekspert Natiq Miri hesab edir ki, əhalinin bahalaşmadan narazılığı kütləvi olsa da indiki vaxtda keçiriləcək aksiyada yetərli kütləviliyin olacağı gözlənilmir. Bu da səbəbsiz deyil:** "Manat qəfil ucuzlaşdırıldıqdan və bahalaşma başlandıqdan sonra hakimiyyət KİV-də əhalinin narazılığını sakitləşdirməyə hesablanan təbliğat apardı. Müxalifət həmin vaxt ortaya çıxmadı. Müxalifət yenə də gecikdi. Hakimiyyətin təbliğatı və bir sıra addımları insanlarda bir sakitlik yarada bilib. İnsanların mitinqə kütləvi qatılmasını əngəlləyən amillərdən biri əhalinin şüurlu hissəsinin 85 faizə qədərinin bu gün bankların girovunda olmasıdır. Hər bir ailəyə banklar vasitəsilə hakimiyyətin təsir etmək imkanları var. Bunu siyasətçilər və sosioloqlar nədənsə ciddi faktor olaraq nəzərə almırlar. Bu gün hər bir ailə bilavasitə müəyyən banklara kredit borcu altındadır. Mitinqlərə kütləvi qatılımın olmamasında üçüncü faktor əhalinin siyasi partiyalara artıq etimad limitinin tükənməsi, dəyişikliklərə inamının olmamasıdır. Xalq müşahidə edir ki, müxalifət təşkilatları bir-biri ilə vuruşur, müxalifətdə birinci olmaq uğrunda mübarizə önə keçib. Ona görə də etimadı itirmiş hər hansı bir siyasi qüvvənin çağırışı ilə 10 minlərlə insanın meydana tökülüşəcəyini gözləmək özünü aldatmaqdan başqa bir şey deyil. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan xalqı son 20 ildə siyasi enerjisini tükətmiş bir xalqdır. Bu enerjinin yenidən yaranması üçün çox ciddi siyasi faktorlar lazımdır. Bu gün o faktorlar hər hansı bir müxalif güc mərkəzində varmı? Əlbəttə, hazırda yoxdur. Bu gün xalqa öndərlik edə biləcək hər hansı siyasi qüvvə varmı? O da yoxdur".

**N.Miri sonda vurğuladı ki, belə bir vəziyyətdə keçirilən mitinqlərə on minlərlə adamın qatılması ehtimalı sıfıra yaxındır.**

❑ Etibar SEYİDAĞA

# Barak Obamanı tez-tez tənqid edən qəzetin redaksiyasında bir neçə saat...

## "Mən "Vaşinqton Post"dan əskik yazıram?"

*- O rubrikamızdan nə xəbər var?*

*- Hansından, Bəxtiyar müəllim?*

*- "Üzü Novruza sarı" rubrikasından... İradə, Novruzla bağlı nə material var? Sifariş vermisən?*

*- Yazı sifariş etmişik, Bəxtiyar müəllim. Görkəmli ədiblərimizə, folklorşünaslara...*

*-Nə çərşənbəsidir gələn həftə?*

*-Yeldir, Bəxtiyar müəllim.*

*-Yel fotosu var bizdə?*

*- Burulğan kimi bir foto var. Ağacların əyilməsi-filan.*

*- Hə, bax, onu qoyarsız qəzetə...*

...Tam fərqli, alışmadığım bir atmosferdəyəm. Bu sabah "Yeni Müsavat"ın yox, başqa bir qəzetin, hətta "qarşı cəbhə"nin planlaşdırmasındayam. Azərbaycanda problemlərin az olduğunu, ölkəmizin rifah, insanlarımızın qayğısızlıq içində... yaşadığından daha çox yazan həmkarlarımızın əhatəsində. Mənə bir neçə saatlıq "o Azərbaycan"da olmaq imkanı yaratdılar. Sağ olsunlar, heç bir kompleksiz, redaksiyalarının qapısını üzümüzə açdılar.

"Azərbaycan" qəzetində səhər iclası 10.15-də başlanır. Şöbə müdirləri başda olmaqla, yaradıcı kollektiv baş redaktor Bəxtiyar Sadıqovun şəkildə gördüyünüz iclas otağına yığışır, iclas masası ətrafında oturub müzakirəyə başlayırlar. Girişdə yazdığım dialoq da qəzetin bir rubrikası ətrafında aparılan müzakirənin qısa özəti idi. Az keçmədən müzakirələr digər sahə mövzuları üzrə davam edir. Hər şeydən öncə məlum olur ki, dövlət başçısı İlham Əliyevin Bolqarıstan səfəri ilə bağlı qəzet 3 səhifə ayıracaq, təbii ki, material və fotolar AzərTAC-dan göndəriləcək. "Prezidentə 3 səhifə ayıracağıq" deyir baş yazar. Daha sonra isə "Üzü Novruza sarı" rubrikası çərçivəsində səngərdə keçirilən Novruz bayramının işıqlandırılması ilə bağlı diskussiya başlanır. Baş redaktor deyir ki, jurnalistlər müxtəlif cəbhə bölgələrinə göndəriləcək, orda əsgərlərin Novruzla bağlı arzuları işıqlandıracaq. Əməkdaşlardan biri "fotolarda əsgərlərin ocaq üstündən hoppanması da olacaqmı?" deyə soruşur. Bəxtiyar müəllim deyir ki, ocaq məsələsi gərək razılaşdırılsın, çünki cəbhə bölgəsi, təhlükəsizlik və sair kimi məsələlər var.

Sonra növbə digər .layihələrə çatır. Bəxtiyar Sadıqov idman layihəsi ilə maraqlanır, əməkdaşlar, şöbə müdirləri növbə ilə cavab verirlər ki, qəzetin 6-cı səhifəsi Bakı 2015 Avropa Oyunlarına həsr olunacaq. Baş redaktorun növbəti layihə dəqiqləşdirməsi isə Dədə Qorqudla bağlı olur. Məlum olur ki, qəzetdəki daha bir layihə "Dədə Qorqudun aşkara çıxarılmasının 200 illiyi" adlanır və bununla bağlı növbəli iki material yerləşdiriləcək.

**"Bəs Qubad İbadoğlu başqan seçilsəydi, 5 ay partiyanı başsız qoyacaqdı?"**

Növbə çatır mart yazılarına. Baş yazar elan edir ki, "kələğayı ilə bağlı gözəl bir yazımız var. Onu martda verəcəyik. Bir də 8 martla bağlı daha çox şəhid analarının müsahibələri, danışıqları getsin. Bir də ki, oxucu məktublarına yer verin, çox qəzet bunu etmir. Amma biz edək, bizim üçün vacibdir".

Müzakirə zamanı qəzet satışı məsələsi də müzakirə olunur. İclas iştirakçılarına tapşırıq verilir ki,



**Bəxtiyar Sadıqov:** "O məqaləyə görə məni elə danladılar..."

hərə öz evinin yaxınındakı köşklərdən "Azərbaycan"ın gətirilib-gətirilmədiyi ilə maraqlansın: "Mənim heç kimə qəzet bağışlamaq fikrim yoxdur".

Növbə ayrı-ayrı şöbələrin yazacağı mövzulara çatır. Siyasət şöbəsinin rəhbəri İxtiyar Hüseynli bildirir ki, prioritet mövzu prezidentin səfəri olacaq. Amma müxalifətdaxili intriqalara da yer veriləcək. Məlum olur ki, günün əsas mövzusu AXCP-Müsavat münasibətləri və Qubad İbadoğlunun Amerika səfəridir.

**B.Sadıqov:** İxtiyar, Qubad İbadoğlu Amerikaya 5 aylığına gedir?

**İ.Hüseynli:** Bəli, Bəxtiyar müəllim.

**B.Sadıqov:** Bəs bu başqan seçilsəydi, indi partiya 5 ay başsız qalacaqdı? (gülür)

Suriyada qırğınlar, Ermənistandakı durum, Amerika... mövzuları da beynəlxalq şöbədən soruşulur. Baş redaktor erməni mövzusu ilə bağlı günün sitatını da deyir: "Erməni başını qaldıran kimi bilməlidir ki, haqq qılıncı başının üstündədir". Onun sözlərinə görə, sözügedən mövzuda əsas xətt bu olmalıdır.

**Redaktor müxbirlərdən iki mərtəbə aşağıda oturur**

Beləcə, planlaşdırmanın ilk hissəsi yekunlaşır, jurnalistlər otağı tərk edəndən sonra şöbə müdirləri müzakirəni davam etdirir. Məlum olur ki, bir rubrika yaddan çıxıb. İ.Hüseynli deyir ki, "Qoy ocağımız sönməsin" adlı rubrika çərçivəsində də yazılar yazılmalıdır. B.Sadıqov rubrikanın adı ilə razılaşmır: "Adını dəyişin, "Qoy ocağımız daha gur yansın" olsun".

Bir neçə mövzu da dəqiqləşəndən sonra İ.Hüseynlinin müşayiəti ilə redaksiyanı gəzirik. Məlum olur ki, baş redaktor "Azərbaycan" nəşriyyatının ikinci, redaksiyanın yaradıcı heyəti isə dördüncü mərtəbədə oturur. Zarafatla soruşuram: "Baş redaktor sizi çağıranda neçə dəqiqəyə aşağı düşürsüz?" Şöbə müdiri də zarafatından qalmır: "O baxır onun bizi hansı səs tonu ilə çağırmasına".



**Redaksiyanın arxiv, kompüter otağı, reklamçılar, konfrans zalı... Bu da daha çox müxalifətdən yazan Rəşad Baxşəliyev. Qarşısında daha çox müxalifət qəzetlərinin saytı açıq olur. Dediyinə görə, mövzu seçimini də özləri edir, sonra şöbə müdirinə məlumat verirlər:** "Müxalifət cəbhəsində durğunluqdursa, biz heç nə yazmırıq. Mütləq deyil ki, hər gün yazaq. Biz həftədə 1 dəfə də yaza bilərik, 3 dəfə. Bu dəqiqə müxalifətdən yazmağa heç nə yoxdur. Son bir həftədə cəmi bir yazı Razi Nurullayevin istefası ilə bağlı olub".

"Azərbaycan"da maraqlı bir ştat da var - redaksiya müdiri... Nüşabə Qənbərli burada redaksiyanın təşkilatı işləri və kadr siyasəti ilə məşğul olur. Dediyinə görə, hər şey sənəd-sübutlu olduğu üçün burda işçilərin heç bir hüququ pozulmur.

**4 prezident "yola salmış" baş redaktor müavini....**

**Rüstəm Rüstəmov baş redaktorun müavinidir. Dediyinə görə, qəzet yaranandan burdadır və bu günə qədər 4 prezidentlə işləyib:** "Biz dövlətə xidmət edirik, qəzetimizin də anlayışı budur. Dövlətin başında dayanan kimdirsə, onun fotosunu, xəbərini veririk. Bu, qəzetin konsepsiyasıdır".

**B.Sadıqovun "sağ əli" olduğu hər halından hiss olunan bələdçimiz İ.Hüseynli isə bu yerdə ilginc bir xatırlatma edir. Deyir ki, Mehman Cavadoğlu "Azərbaycan"a baş redaktor gələndən sonra kommunist dövründən qalan kadrları işdən çıxarıb, əvəzində gəncləri, müsavatçıları gətirmək meyli başlanıb:** "Amma 2-3 ay sonra gördülər ki, "Azərbaycan" qəzeti "Azadlıq", "Yeni Müsavat" deyil, burda tamam başqa normalar prioritetdir. Öz kadrlarına dedilər ki, gedin başqa qəzetə".

Reklam şöbəsinin işçiləri reklamdan, xəbər şöbəsinin işçiləri xəbərdən razılıq edirlər. Qəzetdə də təsvir etdikləri kimi, "işıqlı və parlaq" Azərbaycan mənzərəsi... Elə bu optimist jurnalistlər kollektiv şəkil, ardınca selfie də çək-



**"Azərbaycan" qəzetində ilginc planlaşdırma, iş bölgüsü və mətbəx sirləri...**

dirirk. Sonra yenidən baş redaktorun yanına yollanırıq...

**"Bizim əməkdaşlar çox qürurludu, tərbiyələri ayrıdır"**

**Baş redaktorun dediklərindən:** "Bizdə hər səhər 10-un yarısında şöbələr öz işlərini planlaşdırırlar. Mən redaksiyaya gələndə burda internet xətti yox idi, xarici xəbərləri vermirdik. Mən 2002-ci ildə gələn kimi bura telefon xətti çəkdirdim. Ondan sonra kompüterdən istifadəni öyrətdik, ondan sonra da saytlara girib, xarici xəbərləri verdik. 2-3 il ərzində fərdi kompütərə keçmişik. Tezdən gələn kimi qəzetlərə, saytlara baxırlar ki, bu gün iclasda nə təklif edəcəyik. Sonra saat 10-da redaktor müavinlərinin yanında iclas keçirilir. Sonra 10:15-də müavinlərim, məsul katib, siyasət şöbəsinin müdiri gəlib təklif verir, qətiləşdirirlik. Amma bu da son deyil. AzərTAc-ın yaddaşı olur, biz rəsmi dövlət qəzetiyik. Dövlətin bir qəzeti var, bizik. O birilər iqtidarın qəzetidir. Burda hər bir söz dövlətin sözüdür. Qanun məhz burada çıxdıqdan sonra qüvvəyə minir. Günorta bir də görürsən ki, cənab prezident müşavirə keçirdi, buna da 2-3 səhifə lazımdır. O zaman ya hazır səhifələrin saxlayırıq, ya da səhifələrin sayını artırırıq.

Mən gələndə 11 bölgə müxbirinin sayını endirdim 6-ya. Məndən olsa, zona müxbirliyini bir institut kimi ləğv edərəm. Zona müxbirləri üçün ciddi problem var. İcra başçısı razılıq verməyənə kimi müxbirlər ordan məlumat toplaya bilmirlər. Ona görə də icra başçıları ilə münasibət olmalıdır. Olmayanda böyük problem olur".

**Baş redaktor jurnalistlərin qazancından da danışır:** "Həmkarlarımız bizə həsəd aparırlar ki, "siz yağ içində bal kimisiz". Amma biz büdcədən bir qəpik də olsun almırıq. Biz abunə ilə yaşayırıq, gəlirlərimiz məhduddur. Dünya təcrübəsinə görə 70 faiz sərbəst satışdan olur, 20-30 faiz abunədən olur. Bizdə isə əksinədir. Biz abunədən çox qazanırıq, satışdan isə az. Əsasən 80-90 faiz reklamdan, 10 faiz isə başsağlığından götürməliyik. Bizdə isə əksinədir, 10 faiz reklamdan, 90 faiz başsağlığından götürürük. Amma başsağlığı bazarı bizdədir. Kimin hüzrü düşürsə, dost-tanış, əli çatmayan hər kəs bizim qəzet vasitəsilə başsağlığı verir. Bu bazar bizdə olduğu üçün biz də qiymətləri qaldırmışıq, bir başsağlığının qiyməti 40 manatdır. Jurnalistlərin qazancı ilə bağlı konkret rəqəm deməyəcəm, amma imkanım olsaydı, jurnalistlərim bundan ikiqat artıq məvacib, üçqat artıq qonorar alardı. Əməkdaşlarımız çox qürurlu, tərbiyələridir. Onlar gedib özəl qəzetdə işləyə bilməzlər. Məsələn, o özəl qəzetlər jurnalistə vəsiqə verib deyir ki, get pul gətir. Bizimkilər bunu edə bilməzlər. Bu nəşriyyatdakıların əksəriyyəti reketdir. Çoxu redaksiyanın üstünə niyə qəzetin adını yazmayıb? Çünki reket qəzetdir, adı da "qara siyahı"da var. O münasibətə bizimkilər alışmayıb ki, kimsə xozeyin kimi otursun və bizim jurnalistlərə desin ki, get, filan şeyi elə..."

**"Mən "Vaşinqton Post"dan əskik yazıram? "**

**Qəzetin ABŞ prezidenti ilə bağlı sərt mövqeyi ilə maraqlanıram:** "Dövlət başçısının nitqi bizim üçün ən gözəl kompasdır. O nitqdən bir çox məsələləri özüm üçün mövzulaşdırır, sifariş verir və yazdırıram. Bir yazı yazmışdım: "Biz bunları etmişdik, ya siz?" Biz müstəqillik qazandığımız 24 il ərzində nələr etmişik? Senzura ləğv edilib, sahibkarlıq, demokratiya, vətəndaş cəmiyyəti inkişaf edib. Siz isə - Amerikanı nəzərdə tutur - bizim işğal altında olan bir rayonun bir kəndini belə qaytarmamısız. Və sistemli olaraq bizi tənqid edirsiz. Azərbaycan seçkiləri demokratik keçirmədi, jurnalist həbsxanaya salındı. Bizdə hansı jurnalist yazdığı yazıya görə həbsxanaya düşüb? O hansı qanunda yazılıb ki, adam jurnalistdirsə, hüquq müdafiəçisidirsə, törətdiyi cinayətə görə məsuliyyətdən azad edilməlidir? ATƏT-i həmsədrləri gəlib gezirlər. Amma bizim həmyerlilərimiz öz at-anasının qəbrini ziyarət edəndə girov götürülüb. İkili standartlar var.

Bütün bunlar damcı-damcı yığılıb. Mən özüm də işğal rayonundan olan deputatam. Nə vaxta qədər siz bizə irad tutub, erməninin başını sığallayassız? Niyə Qarabağda işğalçılara, Ermənistana yardım göstərirsən? Amerikanın qəzetləri, Amerikanın maliyyəsi ilə yaşayan qurumlar var. Onlar bizi tənqid edəndə olur, biz onları tənqid edəndə olmur? Bu hüququ bizdən kim alıb? "Vaşinqton Post" məqalə yazmır? Mən də yazıram da. Əskik yazıram? Gəl görək, onların yazdığı obyektivdir, həqiqətə yaxındır, yoxsa bizimki?"

"Dövlət telefonuna neçə dəfə zəng gəlir" deyə, maraqlanıram: "Yadıma sonuncuları salmaq istəyirəm. Hərdən qəzetdə səhv olur, irad ola bilər. Siyasi yönümlü iradlar eşitməmişəm. Mən özümə hər şeyi bağışlayaram qəzetdə, səhv də gedir, yanlışlıq da. Amma siyasi səhv edim, bunu özümə bağışlamaram. Bəzən görürsən ki, Əli Həsənov açıqlama verir, siz də yayırsız bunu, biz də. Biz o açıqlamanı görəndə bilirik ki, nəyi necə yazmaq lazımdır. Xüsusi təlimat olmur. Ya da biz yazaq, orda oxusunlar, belə şey yoxdur. Mən təzə gələndə səhvlərim olurdu. Bir neçə il əvvəl Amerika səfirliyinin Azərbaycan müxalifətinə 2 milyon dollar ayırması ilə bağlı xəbər vardı, bütün media orqanları bunu vermişdi, bizim qəzet də həmçinin. Amma o məqaləyə görə məni elə danladılar... Kimin danladığını demirəm".

❑ **Sevinc TELMANQIZI**



# Məscidin işığı elə bil azalıb

Zamin HACI
zaminhaci@gmail.com

**Deyir Gömrük Komitəsi tacirləri yığıb idarəyə, bundan sonra onlarla centlmen kimi davranacaqlarını söyləyib. Tacirlər də minnətdarlıq eləyiblər.**

Ancaq bundan da maraqlı xəbər var. Binəqədinin icra başçısı Xaləddin müəllim Ziya Bünyadov prospektinin qırağında ota bürünmüş çardaqlar, o çardaqların da altında ağappaq skameykalar qoydurmuşdu. 4 tərəfli, sürətli yolun az qala içinə qoyulan bu obyektlərin təyinatı zəhmətkeşlərimizi çox düşündürürdü. Biri deyirdi ola bilsin Xaləddin müəllim həmin ot kamuflyajlı çardaqlarda snayperlər yetişdirəcək, cəbhə xəttinə yola salacaq. Başqası deyirdi yolda tıxac olanda toy maşınlarındakı bəy və gəlin düşüb o çardaq-gərdəklərdə dincələcəklər, ağ skameyka da ondan ötəridir.

Biz hər bir versiyaya inanmağa məcbur idik. Misal üçün, srağagün çərşənbə bayramı münasibətilə BDU-nun həyətində elm tonqalı qalanmışdı, kösövləri odun içinə şəxsən rektor Abel müəllim itələyirdi. Mən şəklinə baxdım, elə xoş mənzərə idi, adam heyran qalırdı, istər-istəməz başa düşürdün ki, bu tonqaldan hoppanan gənclər sabah həyatın istənilən nöqtəsinə uğurla hoppanacaqdır. Bax, həmin fotoda bir məqam diqqətimi çəkdi: tonqalı universitetin həyətində qaladıqları üçün *(taxtaları auditoriyalardan söküb gətirmişdilər, ya da "Sovetski"-dən, çünki mıxları üstündə idi, bir taxtanın üstündə isə sulu boya ilə yazılan "Yaxşı kənd qatığı var" elanı aydın görünürdü)* yerə döşənmiş metlax təbəqəsi istilikdən ziyan çəkməsin deyə ağacların altına bir qat qum təbəqəsi səpilmişdi! Heyrətamiz idi. Gör BDU-da gənclərimizə hansı elmlər öyrədilir. Halbuki, mən eşitdiyimə görə APİ-də tonqalı birbaşa metlaxın üstündə qalamışdırlar. Kim bilir, bəlkə də Cordano Brunonu elə APİ-Lenin-in müəllimləri yandırıblar.

Qayıdaq çardağımıza. Qeyd etdiyim kimi, mən o çardaqların yolun içində qoyulmasını tənqid elədim, sonra manat devalvasiyaya uğradı, ordan keçəndə gördüm skameykalar yoxdur. Ya icra başçısı götürüb, ya da kimsə oğurlamışdır. Hər halda, indi ancaq çardaq qalır. Bəs niyə qalır? Fikrimcə, Xaləddin müəllim Ziya Bünyadov prospektinin böyürlərində antikrizis tədbirləri olaraq qarpız-yemiş bostanları salmaq fikrindədir, o çardaqlarda da bostan qoruqçuları müvəqqəti məskunlaşacaqdır. Mən jurnalist vəzifəmi yerinə yetirdim, yayda kimisə qarpız oğurlayanda tutsalar özündən küssün.

Ta mövzu düşüb, icra başçısından bir xahişim də var. Biləcəri Dəmiryolçuların İstirahət Parkında çox biabırçı qiymət artımına yol verilmişdir, primitiv uşaq yelləncəyinin 10 dəqiqəsi 40 qəpiyə qaldırılıbdır. Necə ola bilər ki, sən alman mühəndisin qayırdığı avtobusa minib 20 qəpiyə "Neftçilər"dən Beynəlxalq Avtovağzala qədər 30 kilometr gəlirsən, ancaq Məmmədağanın iki əyri dəmir və 3-4 sınıq taxtadan qayırdığı yelləncəyi Biləcəridə 40 qəpiyə uca millətimizə sırıyırlar? Vallah, bu yaxında bir qadın 5 uşaqla ordan keçirdi, hesabladı ki, tək yelləncəyə 2 manat verməlidir, uşaqlar ağlaşa-ağlaşa qaldı. Mənim də ürəyim qana döndü. Ümid edirəm Xaləddin müəllim bu biabırçılığa son qoyacaqdır. Hər halda Ağdərəni geri almağı istəmirik.

Yox, əgər hörmətli Xaləddin müəllim cavab məktubu yazıb yelləncəyin ikiqat bahalaşmasını dolların kursu ilə izah etsə mən bunu qəbul edərəm. Ayrı yolumuz da yoxdur. Təki vətən yaşasın. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Yaxşı yadıma düşdü, bildiyiniz kimi Cənubi Qafqazın ən böyük məscidi - "Heydər məscidi" də Binəqədi ərazisində yerləşir. Onun minarələri o qədər uzundur ki, edilən dualar birbaşa göyün yeddinci qatındakı mələklərin qəbul otağına çatır. Məscidin mükəmməl projektorları da vardır, işığı göydə Marsa, yerdə isə Şuşadakı İsa bulağına qədər çatırdı. Keçmiş zamanda ona görə yazdım ki, krizisdən bəri elə bil məscidin işığına qənaət edirlər. Kürdəmirdən əhali redaksiyamıza şikayət yazıb, deyirlər neçə gündür məscidin işığı evimizə düşmür, uşaqlar dərslərini oxuya bilmir.

İndi söz əlaqədar təşkilatlarındır.

# "Forbes"in "tapa bilmədiyi" azərbaycanlı milyarderlər

**Bir neçə gün öncə ABŞ-ın biznes xəbərləri üzrə ixtisaslaşan məşhur "Forbes" jurnalı 2014-cü ilin yekunları əsasında dünyanın ən varlı adamlarının yeni siyahısını açıqladı. Məlumdur ki, 1826 nəfərlik siyahıda dünyanın 70-dən artıq ölkəsinin vətəndaşı yer alıb.**

## Onları Azərbaycan xalqı çox yaxşı tanıyır; azərbaycanlı leqal zənginlər son siyahıda yenə ölkəmizi yox, Rusiya və Türkiyəni təmsil edib; gəlir bəyannaməsi haqda qanunun 10 ildir işləməməsi təsadüfmü?..

Birinci yerdə yenə meksikalı Carlos Slimdir. 73 yaşlı Slimin 73 milyard dollarlıq var-dövləti var. İkinci yerdə 57 yaşlı Bill Qeytsdir - 67 milyard. Son 14 ildə ilk dəfədir ki, məşhur amerikalı maliyyəçi Buffet birinci 3-lüyə düşməyib. Onun yerində, üçüncü yerdə Amancio Ortegadır - 57 milyard.

Qeyd edək ki, jurnalın 2013-cü il siyahısında 1426 adamın adı olub. Demək, keçən illə müqayisədə daha 210 adam milyarderə çevrilib. Milyarderlərin 442-si ABŞ-dadır. Asiyada 386, Avropada 366, Mərkəzi və Cənubi Amerikada 129, Yaxın Şərqdə və Afrikada 103 milyarder var.

Rusiyanın "payına" 110 milyarder düşüb. Diqqətçəkəndir ki, 2011-ci ildən bu yana Rusiya milyarderlərinin reytinqində lider dəyişikliyi olmayıb. Belə ki, 2011-ci ildən bu günə qədər hazırlanan siyahıya Rusiyanın "USM Holdinqin"in prezidenti, özbək əsilli Əlişir Usmanov liderlik edib. "Forbes"in son siyahısında isə artıq ilk yeri Əlişir Usmanov yox, "İnterros Holdinqin"in prezidenti Vladimir Potanin tutub. Dünya milyarderləri siyahısında 60-cı yerdə qərarlaşan Potanin 14,8 mlrd. dollar sərvəti var.

Rusiya zənginlərinin siyahısında 3 azərbaycanlı da var. "LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərov 14,8 milyardla dünyada 55-ci yerdədir (Rusiyada 6-cı). Araz Ağalarovun var-dövləti 1,8 milyard dollar təşkil edib. O, 831-ci yerdədir. Fərhad Əhmədovun varidatı 1,4 milyard qiymətləndirilib.

227 gəmisi olan "Palmalı" şirkətinin sahibi, azərbaycanlı iş adamı Mübariz Qurbanoğlu (Mənsimov) isə Türkiyə milyarderlərin sırasındadır. Onun var-dövlətini "Forbes"ə görə, 



1,2 milyard dollardır. Mübariz Qurbanoğlu 1175-ci yerdədir.

Postsovet məkanı ölkələrindən Qazaxıstanın prezidenti Nursultan Nazarbayevin qızı Dinara Kulibaeva da ən zənginlərin sırasındadır. O, 1,3 milyardla dünyada 1107-ci yerdədir. Moskva Teatr İnstitutunun məzunu olan Dinara rəsmən Qazaxıstanın 4-cü ən varlı adamıdır.

Maraqlıdır ki, postsovet və region ölkələrindən olan Gürcüstan da bir nəfərlə siyahıya "adını" yazdıra bilib - Bidzina İvanişvili. Amma Azərbaycanı bu dəfə də rəsmən təmsil edən yoxdur. Halbuki iqtisadi göstəriciləri ölkəmizdən qat-qat aşağı olan Gürcüstan qeyd edildiyi kimi, bir nəfərlə də olsa, "Forbes"in siyahısına düşüb. Sırada həmçinin siyasi-iqtisadi sistemi Azərbaycana çox yaxın olan Qazaxıstanın "nümayəndəsi" var.

### Bəs, regionun lider dövləti?

Şübhə yox ki, bu, "Forbes"in yanlışı, yaxud Azərbaycana, onun zənginlərinə münasibətdə qısqanclığı ilə bağlı deyil. Məsələdə xain "erməni barmağı" axtarmağa da dəyməz. Səbəb, sadəcə, bizim rəsmən maaşla dolanan, de-fakto isə pulu balta kəsməyən zənginlərimizin özünəməxsus varlanma üsulu və daima kölgədə qalmaq, dilə-dişə düşməmək istəyidir. Müxtəsəri, şəffaflıq məsələsidir.

"Forbes" isə bir qayda olaraq, açıq, şəffaf mənbələrdən əldə etdiyi məlumatlar hesabına, biznesmenlərin müvafiq qurumlara təqdim etdikləri gəlir və əmlak bəyannamələri, ödədikləri vergilər və s. əsasında iş adamının varidatını hesablayır...

**Bircə fakt:** Azərbaycan parlamenti hələ 2005-ci ildə "Vəzifəli şəxslərin maliyyə xarakterli bəyannamələrinin təqdim edilməsi haqqında" Qanun qəbul edib. Qanun həmin ildəcə qüvvəyə minib. 2005-ci ilin avqustunda isə qanunun 5-ci bəndinə əsasən, gəlir bəyannamələrinin formasını 3 ay müddətində hazırlamaq barədə Nazirlər Kabinetinə xüsusi fərmanla göstəriş verilib. Ancaq 10 il (!) ötsə də indiyədək formalardan xəbər yoxdur. Səbəb yəqin ki, aydındır.

Ötən il isə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya Nazirlər Kabinetinə Azərbaycanda dövlət məmurlarının gəlir bəyannamələrinin formalarının hazırlanması ilə bağlı məktub ünvanlayıb. Məktubda bəyannamə formasının hazırlanması prosesinin sürətləndirilməsi xahiş olunur. Bu barədə komissiyanın katibi Vüsal Hüseynov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2014-cü ilin I yarısında korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı keçirilən mətbuat konfransında bildirmişdi. **Sitat: "Azərbaycanda dövlət məmurlarının gəlir bəyannamələrinin hazırlanması ilə bağlı irəliləyişin olmaması Nazirlər Kabineti tərəfindən həmin bəyannamə formalarının təsdiq edilməməsi ilə əlaqədardır. Komissiya bununla bağlı Nazirlər Kabinetinə məktub göndərib ki, proses sürətləndirilsin".**

Göründüyü kimi, hökumətdən yenə səs çıxmayıb. Lakin "Forbes"in "tapa bilmədiyi", Nazirlər Kabinetinin isə israrla "gizlətdiyi" azərbaycanlı milyarderləri Azərbaycan xalqı çoxdan yaxşı görür və tanıyır...

❑ Analitik xidmət

# Qubad İbadoğlu beş aylıq ABŞ səfərinin səbəblərini açıqladı

## "İştirak etdiyim proqram demokratiyanın inkişafının, insan haqlarının və azadlıqlarının qorunmasının təşviqi məqsədi güdür"

**ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu ABŞ-a beş aylıq səfəri getməsinin səbəblərinə aydınlıq gətirib: "Əsası ABŞ Konqresi tərəfindən qoyulan, Federal Hökumət tərəfindən dəstəklənən və Demokratiya Naminə Fond tərəfindən himayə olunan proqram çərçivəsində Vaşinqtondayam. İştirak etdiyim proqram Azərbaycan kimi ölkələrdə demokratiyanın inkişafının, insan haqlarının və azadlıqlarının qorunmasının təşviqi məqsədi güdür. Proqramın müddəti 5 aydır.**

Bu müddət ərzində ABŞ Prezidentinin Ofisində, Konqresdə, Senatda, Dövlət Departamentində, Federal Hökumətdə, Ali Məhkəmədə görüşlərdə olacam. Vaşinqtonun tanınmış beyin mərkəzlərindən və universitetlərindən - Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzində (CSİS), Yeni Amerika Fondunda (NAF), Xarici Əlaqələr Şurasında (CFR), Vudrov Vilson Mərkəzində (WWC), Beynəlxalq Sülh Naminə Karnegi Himayə Mərkəzində (CEIP), Atlantik Şurasında, Siyasi Araşdırmalar Mərkəzində, Mac Kein İnstitutunda, Marşal Fondunda, Corctaun Universitetində, Con Hopkins İnstitutunda və digər nüfuzlu beynəlxalq düşüncə mərkəzlərində təşkil olunan müzakirələrə qatılacam. Nəinki ABŞ, eləcə də qlobal səviyyədə önəmli siyası xadimlərlə və iqtisadçılarla görüşəcəm. Proqramın müddəti bitəndən sonra yenidən vətənə dönüb, siyasi və ekspert fəaliyyətimi Azərbaycanda davam etdirəcəm".



Qubad İbadoğlu

Qeyd edək ki, Q.İbadoğlu bu səfərində ilk dəfə olaraq, Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının sədri statusu ilə müzakirələrə qoşulacağını bildirib. Və həmçinin bu səfər proqramının şəffaflıq deyil, daha çox siyasi məsələlər üzərində qurulacağını deyib.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015





# Bəşər Əsədin sarayında - prezident jurnalistləri yanına yaxınlaşdırmadı

## Türkiyə və Suriya siyasiləri arasındakı 2 illik pauza pozuldu

**Türkiyədən Suriyaya gedən nümayəndə heyətinin prezident Bəşər Əsədlə görüşü ilk günə nəzərdə tutulsa da, gecikirdi. Özəl uçaqla Dəməşqə gəliş planının dəyişdirilməsi, heyətin Suriyaya Livandan keçməyə məcbur olması bir sıra suallar yaratmışdı. Üstəlik, həmin günlər Suriya ordusunun həm quzey, həm də güney cəbhəsində İŞİD-lə savaşı şiddətləndiyindən Bəşər Əsədin heyətə vaxt ayıra bilməyəcəyi də mümkün idi.**





Suriya Ordusunun ali baş komandanı olan Əsəd əməliyyatlara generalları ilə bir yerdə rəhbərlik edir. Bu, Bəşər Əsədlə görüşü əngəlləyə biləcək ən ciddi səbəb ola bilərdi. Ancaq şimal cəbhəsində gedən döyüşlərdə ordunun İŞİD-ə ağır zərbə endirməsi Suriyada özəl bir hava yaratmışdı - rəsmilərin də, vətəndaşların da əhvalı yerində idi.

Sadaladıqlarımız görüşün gecikdirilməsinin üzdə görünən səbəbi idi. Məsələyə bir də Suriya tərəfdən baxaq. Sözsüz, Suriya bir çox bəlaların qaynağı kimi baxdığı Türkiyədən gələn heyətə həssaslıqla yanaşırdı. Heyət sadə heyət deyildi. "Ergenekon" davasında həbs edilən, Türkiyə siyasətində saç ağartmış Doğu Perinçeklə yanaşı, onun "məhbəs arkadaşı", indi isə Vətən Partiyasında müavini olan Türkiyə Silahlı Qüvvələri kəşfiyyatının keçmiş sədri general İsmail Haqqı Pekin, baş nazirin keçmiş müavini, AKP-nin qurucularından olan Abdullətif Şener, keçmiş müdafiə naziri Barlas Doğu, millət vəkilləri, həm Suriyada, həm Türkiyədə yaşayan kürd aşirətlərindən birinin lideri Abdulkadir Yıldız. Bugünkü Türkiyə müxalifətinin önəmli isimləri olan bu şəxslər Suriya ilə Türkiyə arasında problemlərə çözüm bulmaq üçün yola çıxmışdılar. Bəşər Əsədin hər hansı səbəbdən onları qəbul etməməsi Türkiyədən uzanan barışcı bir əlin geri qaytarılması anlamına gələ bilərdi.

Bəşər Əsədin xüsusi təhlükəsizlik xidmətinin - Prezident Qvardiyasının səfər boyu nəzarətində olan heyətdə onlar üçün ən arzuolunmaz şəxslər biz qəzetçilər idi. "Ulusal" kanaldan Naci Eriş, "Milliyət" qəzetinin özəl xəbər müxbiri Mithat Yurdakul və "Yeni Müsavat"dan bizim Suriyanı görmək, görüntüyə almaq istəklərimiz, oteldə qarşımıza çıxan insanlarla təmas yaratmaq cəhdlərimiz, bizə ayrılan mühafizə və sürücüləri ölkə haqqında sorğu-suala tutmamız gözlədiyimizin tam əksinə olaraq narahatlıqla qarşılanırdı. Oteldən kənara çıxmaq imkanlarımızı Livanda əlimizdən almışdılar - pasportlarımız təhlükəsizlik xidmətində idi. Pasport rejimində yaşayan ölkədə heç bir tin də gedə bilməyəcəkdik. Üstəlik, şəhərdə davamlı partlama, polis, təcili yardım maşınlarının səsi, telekanalların xəbər buraxılışlarındakı həyəcanlı görüntülər bizi də üşəndirirdi. Heyətin hansısa görüşündən qayıdandan sonra kameralarımızdakı görüntüləri incələyirdilər. İstənməyən kadrları silirdilər. Uniformada olan çoxsaylı təhlükəsizlik xidməti əməkdaşları ilə bərabər mülki geyimdə olan şəxslərin də bizim hər hərəkətimizə, hətta yeməkdə kiminlə oturmağımıza, internetdə nə ilə məşğul olmağımıza xüsusi nəzarət etdiyinin fərqindəydik. Deyəsən, iki günlük yoxlamalardan yaxşı çıxdıq - zamanı cidd-cəhdlə son ana qədər gizlədilən Əsəd görüşü baş tutdu.

Bizə bu haqda görüşdən cəmi 2 saat qabaq xəbər verdilər. Qəzetçiləri hər görüşdə olduğu kimi, prezident sarayına daha tez apardılar - kameraların yoxlanması proseduru hər dəfə xeyli uzanırdı.

Maşınlara minəndə nə saray yolunu, nə sarayın içərisini təsvir etməməyi bizdən bu dəfə xahiş etdilər. Bircə onu deyim ki, belə təhlükəsizlik tədbirləri ilə İsrailin baş naziri Liberman Bakıya gələndə qarşılaşmışdım. Baş nazirlə İsraildən gələn xüsusi mühafizə xidmətinin əməkdaşları bizim az qala ayaqqabımızın dabanlarını da çıxarıb baxmaq istəyirdilər. Həm də xüsusi nəzarət aparatlarından keçəndən sonra...

Nəhayət, Bəşər Əsədin qonaqları qəbul etdiyi salondayıq. 10 dəqiqə keçməmiş Bəşər Əsədi görürük - "özəl qələm"i ilə söhbət edə-edə salona doğru gəlir. Üzü rahat, addımları möhkəm, baxışları sakitdir. Geyimi sadədi. Salona daxil olanda qəzetçilərə gülümsəyib əl edir. Bizdən başqa otaqda Suriyadan daha 4 "kamera" işləyir. Gözümüz prezidentlə şəkil çəkdirmək üçün azı 20 dəqiqə dilə tutduğumuz mühafizə xidməti rəisinin üzündə qalıb. Gözləri ilə "yox" işarəti verir... Qanımız möhkəm qaradı... Hər halda, həyatımızı təhlükəyə qoyaraq belə bir səfərə gəlməyimiz Suriya üçün, Suriya insanın səsini eşitdirmək üçün idi; prezidentlə şəkil çəkdirmək kimi adi bir məsələni nədən belə şişirtdiklərini anlamırdıq. Prezidentin qəzetçilərlə şəkil çəkdirməsi həm də dünya qəzetçilərinə bir mesaj olacaqdı - gəlin, görün, yazın, biz sizin təhlükəsizliyinizi təmin edəcəyik deyə. Görünür, Suriya hələlik təhlükəsizlik məsələsində özünə əmin deyil. Bu ölkədə olduğumuz 3 gündə bunun şahidi olduq.

**Bəşər Əsədə Türkiyə heyətinin gəldiyini xəbər verəndə salonun qapısına gəlib heyəti orada qarşılayır. Səmimi bir atmosfer var - Əsədin şadlığı üzündən oxunur:** "Suriya gəldiyiniz üçün çox xoşbəxtəm. İki ildir Türkiyədən heç bir heyətlə görüşməmişəm. Yəni onlar bizi ziyarət etmir. Belə bir zamanda Suriyaya səfər etməyiniz bizim üçün çox dəyəlidir. Bu addımınızla təkcə Suriyaya deyil, bütün ərəb dünyasına çox ciddi mesajlar verdiniz. Bu gün bəziləri Türkiyəni düşmən gözündə görür. Siz isə bu səfərlə "biz türklər və siz ərəblər" qardaşıq mesajını vermiş oldunuz".

**Əsəd AKP iqtidarı ilə Türkiyə xalqı arasında Suriya məsələsində fikir ayrılığı olduğunu iddia etdi:** "Bu bölgənin taleyini türklərlə ərəblər müəyyən etməlidir. Türkiyənin bölünməsi Suriyanın bölünməsi, Suriyanın bölünməsi Türkiyənin bölünməsidir. Biz buna imkan verməməliyik. Təkcə siyasi deyil, iqtisadi münasibətlər, bərabər texnologiya gəlişdirmələri bölgənin gələcəyi üçün çox vacibdir. Ağ dəniz, Qara dəniz, Xəzər dənizi, Körfəz dənizi dünyanın qəlbidir. Ancaq buradakı dövlətlərin idarə edilməsi üçün adam kimi adamlar gərəkdir".

**Vətən Partiyasının başqanı Doğu Perinçek də Bəşər Əsədin fikirlərinə dəstək verir:** "Dəvət və qəbul üçün təşəkkür edirik. Ailənizə, Türkiyə xalqının xüsusi simpatiyası olan, özgür qadın obrazı kimi gördükləri dəyərli Əsma Əsədə də salamlarımızı çatdırmağınızı istəyirik". *(Bəşər Əsəd təşəkkür edir və "bu gün mən bu görüş haqqında ona danışacağam" deyir).* Bizim heyətdə fərqli partiyalarda olan, fərqli dünya görüşlərinə sahib insanlar birləşib. Bizi birləşdirən həm də bölgəmizdə barış və təhlükəsizliyin təmin edilməsi istəyimizdir. Bunun üçün mücadilə veririk və inanırıq ki, Suriya-Türkiyə münasibətləri bu çətin dönəmi atladaraq xalqlarımız arasında yenidən etimad və etibarın bərpa olunacağı mərhələyə gəlib çatacaq. ABŞ-ın bölgəyə hücumu Suriyada dayanmağa məcbur oldu. Bu, sizin və xalqınızın iradəsi ilə gerçəkləşdi. Münafiq Qardaşlar artıq Suriyada məğlub edilib. Mosul əməliyyatı da başarısızlığa məhkumdur. Terroru dəstəkləyənlər məğlub olur. İndi sıra Türkiyədəki Münafiq Qardaşların məhv edilməsinə gəlib. Hamımızın birgə səyi ilə terrorun bu torpaqlardan kökünü kəsməliyik".

Perinçek Türkiyə, Suriya, İraq, İran, Liviya, Misir və Azərbaycanın bölgənin gələcəyi üçün "7 ölkə, 7 dəniz" layihəsini gerçəkləşdirməsində fayda olduğundan danışır.

Daha sonra görüş bağlı qapılar arxasında davam etdi. 1 saat 45 dəqiqə sürən görüşdən sonra Bəşər Əsəd qonaqları qapıya qədər ötürdü. Heyət üzvləri söhbətin təfərrüatları haqqında ümumi danışır. Bəlli olan odur ki, türkmənlərin durumundan, bölgədəki humanitar fəlakətdən, iki ölkə hökumətləri arasındakı incik nöqtələrə qədər, bir çox məsələlərdən danışılır.

**Doğu Perinçek "Yeni Müsavat"a açıqlamasında səfəri çox yüksək qiymətləndirir:** "Fərqli düşüncələrdən olan insanların birləşdiyi bir Türkiyə heyətinin belə bir görüş keçirməsi son dərəcə önəmlidir. İnanıram ki, bu, iki ölkə arasında münasibətlərə müsbət çalar gətirəcək və prosesin hər iki ölkənin xalqlarının xeyri istiqamətində yürüməsinə imkan yaradacaq".

**Vətən Partiyasının lideri onu da deyir ki, Bəşər Əsədlə danışılan mövzular haqqında Xarici İşlər Nazirliyini və baş nazirliyi məlumatlandıracaq.**

❏ **Aygün MURADXANLI, Dəməşq**

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015



# Bakıya sərf edən fiasko

Azər RƏŞİDOĞLU

**Böyük barışıq olmayacaq. Tehran yenə də Vaşinqtonun planlarına qarşı çıxdı. Rəsmi Tehran ABŞ prezidenti Barak Obamanın nüvə fəaliyyətini ən azı 10 il müddətində dondurulması təklifini "ifrat və məntiqsiz" adlandırdı.**

Beləliklə, Tehran və Vaşinqton arasında nüvə danışıqlarındakı gərginliyi həll etmək mümkün olmadı. Çoxları ehtimal edirdilər ki, Vaşinqton-Tehran münasibətlərindəki gərginlik tezliklə aradan qalxacaq. Lakin möcüzə baş vermədi. Əslində Obama administrasiyası anlayırdı ki, Tehran məsələnin "çox qəliz" olduğunu əsas gətirərək Vaşinqtonun təklifindən imtina edəcək.

Bütün bunlara baxmayaraq, bir sıra ekspertlər iki ölkə arasındakı münasibətlərdə irəliləyişin əldə olunduğunu ehtimal edirlər. Hər iki ölkədə münasibətlərin normallaşmasına qarşı çıxanlar var. İranda ölkənin birinci şəxsi, dini lider ayətullah Xomeyni, Vaşinqtonda qırğılar Tehran-Vaşinqton münasibətlərinin nizamlanmasına qarşı çıxırlar. Vaşinqton qırğıları və yəhudi lobbisi hesab edir ki, Tehran rejimi ilə hər hansı razılaşmanın əsas şərti İranın nüvə proqramından birdəfəlik əl çəkməsi olmalıdır.

Lakin hər iki ölkədə danışıqların başlaması, münasibətlərin nizamlanmasını istəyənlər var. Odur ki, ehtimal etmək mümkündür ki, ABŞ və İranla danışıqları başlayacaq. Bu danışıqlar Azərbaycan və Türkiyənin mövqelərinin zəifləməsinə səbəb ola bilər. Vaşinqton-Tehran münasibətlərindəki gərginlik ABŞ üçün Azərbaycanın önəmini artırırdı. Bu baxımdan, iki ölkə münasibətlərinin yaxşılaşması Azərbaycanı oyundan kənar vəziyyətə sala bilər.

Lakin unutmaq olmaz ki, Qərbin İranla münasibətlərinin istiləşməsinin arxasında yalnız nüvə problemi dayanmır, eyni zamanda İranı Rusiyadan ayırmaq, Moskvanı bölgədəki ən mühüm tərəfdaşından məhrum etmək niyyətinə hesablanıb.

Bu gün bölgədə ABŞ, Rusiya, İran, Türkiyə arasında rəqabət gedir və bu qüvvələr bölgədə aparıcı olmaq uğrunda mübarizə aparırlar. İranın nüvə proqramı ətrafında yaranmış situasiya və Qərb tərəfindən ardıcıl olaraq Tehranı sanksiyalarla hədələməsi Bakı və Ankaraya sərf etməklə yanaşı, İrana çox böyük zərbələr vurur.

Qərb İranın daha da zəifləməsi və güzəştlərə getməsinə nail olmağa çalışır. Digər tərəfdən isə İranın nüvə proqramını nəzarət altına almaq istəyir.

Rəsmi Tehran bəyan edir ki, onların nüvə çalışmaları sülh məqsədlidir. Ancaq bunu isbat edə bilmirlər. Tehran beynəlxalq aləmdə İranla bağlı qəbul edilən hər qərarı ABŞ-ın adına bağlayır. Əslində artıq Tehran nüvə çalışmalarını gizlədə bilmir. Tehran Qum yaxınlığında nüvə çalışmaları apardığını etiraf edib. Bu ondan irəli gəlir ki, Tehran məsələnin faş olacağını anlayırdı, çünki Qərb və İsrail kəşfiyyatının əlində tutarlı faktlar var idi.

Rəsmi Tehran az qala hamını hədələməklə məşğuldur. İsraili yer üzündən silinməsi vacibliyini dilə gətirən bir ölkənin əlinə nüvə silahı düşsə, onun bu silahdan necə istifadə edəcəyi üzərində çox düşünməyə dəyməz.

Digər tərəfdən İranın nüvə silahı olarsa, Türkiyə də nüvə silahı haqqında ciddi düşünmək məcburiyyətində qalacaq. Nüvə silahı olan İran Azərbaycana da yaxşı heç nə vəd etmir. Onsuz da İranın Azərbaycan əleyhinə hədələrini bitmək bilmir. Bu baxımdan başda ABŞ olmaqla Qərb birmənalı olaraq İranın nüvə silahı əldə etməsinə imkan verməyəcək. Son təşəbbüsün pozulması isə ona dəlalət edir ki, Tehran geri çəkilmək fikrində deyil...

# İnhisarçıların xalqı soymasını necə əngəlləmək olar?

**Hökumətin süni qiymət artımlarına qarşı gördüyü sərt tədbirlərə baxmayaraq, dövlət nəzarətində olan yerli şirkətlərin məhsul və xidmətlərində də qiymət artımı müşahidə edilməkdədir. Ötən dəfə qeyd etdiyimiz kimi, marketlərdə yerli istehsalçı olan "Azərsun Holdinq" məhsullarında qiymət artımı var. Bu artımın şirkətin, yoxsa mağaza sahibinin iradəsi ilə baş verdiyini dəqiq bilməsək də, artım vitrinlərdəki qiymətlərdə deyil, çox kassalarda özünü göstərir.**



**Vahid Əhmədov:** "Hətta xaricdən gətirilən ərzaq məhsullarının, dərmanların qiymətində artım 12 faizdən çox olmamalıdır"



**Afiq Səfərov:** ""Azərsun" Holdinq manatın devalvasiyası haqqında qərar qəbul olunduğu gün bəyanat verdi ki..."



**Qadir İbrahimli:** "Hökumətin inhisarçı şirkətlərə qarşı deyil, məhz marketlərə qarşı tədbirlər görməsi anlaşılan deyil"

Digər bir yerli şirkət, hava nəqliyyatında Azərbaycanda inhisarçı şirkət olan AZAL-ın təyyarə biletlərində bahalaşma var. AZAL rəsmiləri bunu avronun məzənnəsinin manata nisbətən bahalaşması ilə əlaqələndirsələr də, insanlar qiymətlərin hədsiz baha olmasından narazıdırlar. Onu da qeyd edək ki, Türk Hava Yolları şirkəti də daxil olmaqla, bir çox beynəlxalq aviaşirkətlər neftin qiymətinin və dolayısı ilə təyyarə benzininin ucuzlaşması ilə bağlı biletlərdə 10 faizə qədər endirim ediblər. Azərbaycan Hava Yolları (AZAL) isə hələ ki bu addımı atmaq niyyətində deyil.

AZAL-ın xidmət rəisi Məhərrəm Səfərli "Yeni Müsavat"a bildirdi ki, hələ ki təyyarə biletlərinin ucuzlaşması müzakirə mövzusu deyil.

Bəs görəsən, hökumətin bahalaşma əleyhinə apardığı mübarizə tədbirləri niyə birbaşa dövlət nəzarətində olan şirkətləri əhatə etmir?

**"Yeni Müsavat"ın suallarını cavablandıran Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov bildirdi ki, manatın devalvasiyasından sonra qiymət artımı labüd idi:** "Hökumət bunun qarşısını müəyyən qədər inzibati metodlarla almağa çalışdı. Son günlər İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti müəyyən qədər bu işin öhdəsindən gəldi. Ancaq bəzi məhsullar var ki, ölkəyə xaricdən gətirilir və ya yerli istehsal olsa da xammalı xaricdən gətirilir. Bu məhsullar da dollarla alındığı üçün qiymət artımına səbəb olur. Ancaq burada obyektiv və subyektiv qiymət artımlarını fərqləndirmək lazımdır. Çox təəssüf ki, bəzən kimlərsə bundan istifadə edib qiymətləri süni şəkildə qaldırırlar. Bizim apardığımız hesablamalara görə, hətta xaricdən gətirilən ərzaq məhsullarının, dərmanların qiymətində artım 12 faizdən çox olmamalıdır. Ancaq birdən-birə qiyməti 30-33 faiz artırmaq yolverilməzdir. "Azərsun" şirkətinin prezidenti ilk günlərdən bildirmişdi ki, bu şirkətin məhsullarının qiymət artımı olmayacaq. Ancaq siz deyirsiniz ki, qiymət artımı olub. Hər nə qədər qiymət artımının qarşısını almağa çalışsalar da, bu, labüddür. Bütün yerli şirkətlər istehsal etdiyi məhsulun xammalının müəyyən hissəsini xaricdən gətirir. Bir müddət qiymət artımının qarşısını almaq olar, ancaq bu gözləniləndir. Ərzaq məhsullarından əlavə, əhalinin dərman preparatları ilə təminatına da diqqət ayırmaq lazımdır. Biz təklif etmişik ki, dərmanların qiymətləri dövlət tərəfindən tənzimlənsin və hər bir dərman üçün maksimal hədd müəyyən edilsin. Heç bir şirkət də dərmanı həmin qiymətdən yuxarı bazara çıxara bilməsin".

**"Azərsun Holdinq"in ictimaiyyətlə əlaqələr və biznesin inkişafına dəstək departamentinin müdiri Afiq Səfərov bildirdi ki, "Yeni Müsavat" qəzetində "Azərsun" şirkətinin istehsalı olan məhsullarda qiymət artımının olması ilə bağlı məqalədəki məlumatlar həqiqəti əks etdirmir:** "Bununla bağlı demək istəyirəm ki, hazırda "Azərsun Holdinq" tərəfindən heç bir məhsulun qiyməti artırılmayıb. "Azərsun Holdinq" manatın devalvasiyası haqqında qərar qəbul olunduğu gün bəyanat verdi ki, biz daxili imkanlarımız hesabına heç bir məhsulda qiymət artımına yol verməyəcəyik. Bu gün də həmin qərarın üzərində dayanırıq və heç bir məhsulun bahalaşmadığını bir daha bildiririk. Biz dövlətin müvafiq qurumları ilə birgə əməkdaşlıq şəraitində çalışırıq ki, qiymət artımı olmasın. Dünyanın hər bir yerində iqtisadi böhran yaşanmaqdadır. Azərbaycanda isə dövlət də çalışır ki, iş adamları bu zərərdən maksimum şəkildə sığortalansınlar".

**"Azərsun Holdinq" rəsmisi bu şirkətə məxsus məhsulların qiymətinin mağaza və market sahibləri tərəfindən qaldırılmasını da istisna etmədi və bildirdi ki, bu kimi hallar baş verərsə həmin şəxslərə qarşı sərt tədbirlər görüləcək:** "Təəssüf ki, bu kimi hallar baş verir, bizə də məlumatlar daxil olur. Bizim müvafiq şöbələrimiz məsələyə dərhal reaksiya göstərirlər və müdaxilə edirlər. Mən bir daha deyirəm ki, nə qədər ki, əlimizdə ehtiyatlarımız var, heç bir qiymət artımına getməyəcəyik. Biz bəzi məhsulların yerli xammal hesabına istehsalına nail olmuşuq. Ancaq bəzi məhsulların qablaşdırılması, xammalı xaricdən gətirilir. Dünya bazarında, o cümlədən ixracatçı ölkələrdə baş verən proseslər də qiymətlərə təsir edə bilər. Hazırda gələcəklə bağlı dəqiq qərar yoxdur. Ancaq hazırda heç bir qiymət artımı yoxdur. Gələcəkdə isə dünya bazarındakı qiymətlərdən asılı olaraq endirimlər də ola bilər, artımlar da".

**Son günlər istehlak bazarında baş verənləri dəyərləndirən iqtisadçı ekspert Qadir İbrahimli yaranan problemlərin əsas səbəbi kimi ölkədə monopoliyanın mövcud olmasını göstərdi:** "Ərzaq məhsullarında qiymət artımının səbəbləri müxtəlifdir. Birincisi, manatın devalvasiyası avtomatik olaraq qiymət artımına gətirib çıxarır. Burada söhbət süni yox, təbii qiymət artımından gedir. Hökumət süni qiymət artımına qarşı mübarizə aparmasını bəyan etməklə əslində faktiki olaraq ölkə iqtisadiyyatının monopoliyalardan ibarət olduğunu rəsmən təsdiqlədi. Çünki bazar iqtisadiyyatında süni qiymət artımı anlayışı yoxdur. Bazar iqtisadiyyatı şəraitində tənzimlənən qiymətlər var, onu da bazar özü tənzimləyir. Əgər hökumət qiymətləri tənzimləyə biləcəyini iddia edirsə, deməli, ölkədə bazar iqtisadiyyatı anlayışı yoxdur, ölkə tamamilə monopoliyaların nəzarətindədir. Hökumət həmin monopolistlərə təzyiq edir ki, qiymətləri aşağı salsın, bəzən buna nail olur, bəzən isə yox. Monopoliyanın fəlsəfəsi ondan ibarətdir ki, o istədiyi zaman qiyməti qaldıra bilər. Azərbaycanda manatın devalvasiyasından əvvəl də dəfələrlə qiymət artımları baş vermişdi. Eyni zamanda AZAL-ın qiymət artımları da inhisarçılığın bir təzahürüdür. Çünki AZAL aviareyslər bazarında monopolistdir. Azərbaycanda sərnişin və yük daşımalarının 99 faizi məhz AZAL-ın payına düşür. Hava nəqliyyatında AZAL-ın rəqibinin olmaması bu şirkətə imkan yaradır ki, istədiyi həddə qiymətləri artıra bilsin".

**Hökumətin gördüyü tədbirlərə gəlincə, ekspert bildirdi ki, burada çox absurd bir tendensiya yaranıb ki, hökumət ölkədəki monopolistləri yox, həmin monopolistlərin tərəfdaşı olan kiçik biznesmenləri - marketləri, mağazaları cəzalandırır:** "Ancaq onların bu prosesdə günahı yoxdur. Onlar şirkətlərdən aldıqları qiymətin üzərində 20 qəpik əlavə etməklə satışa çıxarırlar. Kiçik ticarətçilərin rolu burada 20 qəpikdən artıq deyil. Hökumətin inhisarçı şirkətlərə qarşı deyil, məhz marketlərə qarşı tədbirlər görməsi bu mənada anlaşılan deyil".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Ermənilərin "soyqırım" şousuna Türkiyə və Azərbaycandan hərbi şou cavabı

## Bakı və Ankara Hərbi Hava Qüvvələrinin birgə təliminə başladı; türkiyəli general Bakıya gəldi...



**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində silahlar ötən sutka ərzində də susmayıb. Müdafiə Nazirliyinin rəsmi məlumatına görə, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 58 dəfə pozub. Bu arada Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın müdafiə naziri Seyran Ohanyanın açıqlamalarına cavab verib.**



S. Ohanyan martın 3-də Azərbaycanı növbəti dəfə ittiham edən fikirlər səsləndirib və hədələr səsləndirib. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, cavabda daha çox düşmən ölkənin sadə vətəndaşlarına xitab əksini tapıb. Rəsmi məlumatda deyilir ki, Ohanyanın çıxışı vicdanını və şərəfini günahsız dinc insanların qanı ilə ləkələmiş cəlladın növbəti uydurmasıdır: "Xocalı və digər işğal olunmuş Azərbaycan ərazilərində mülki əhaliyə, o cümlədən körpələrə, qadınlara və ahıllara divan tutan bir şəxsin öz torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşən Azərbaycan xalqını təhqir edərək insaniyyətdən danışmağa mənəvi haqqı və hüququ yoxdur. Yüzlərlə uşağı qanına qəltan edən bir cani və varvar valideyn olaraq öz övladlarının və Azərbaycanın işğal olunmuş ərazilərində nahaq yerə məhv edilən, yaralanaraq şikəst olan ermənilərin uşaqları və yaxınlarının gözünə baxa bilirsə, bu, onun psixi cəhətdən anormal olmasını açıq-aydın sübut edir. Bu gün və illərdir Ohanyanın və cinayətkar erməni rəhbərliyinin ağılasığmaz təkəbbürünün qarşılığını erməni xalqı hər gün qapılarına gətirilən tabutlarla ödəyir".

**Müdafiə Nazirliyi Ermənistan əhalisinə ünvanlı müraciətdə bəyan edib:** "Biz erməni valideynlərə müraciət edərək övladlarını mənasız xəyallar uğrunda ölümə yollamamağa çağırırıq. Çünki son erməni işğalçısı Azərbaycan torpaqlarını tərk edən günədək siz bundan da ağır və sarsıdıcı itkilərlə qarşılaşacaqsınız".

***

Ermənistanın təcavüzkar addımlarının qarşılığında Azərbaycan və Türkiyə hərbi əməkdaşlığını yüksək səviyyədə davam etdirir. İki qardaş ölkə arasında davam edən bu əməkdaşlığın həm də qondarma "erməni soyqırımı"nın 100 illik şou-tədbirlərinə cavab da saymaq olar. Belə ki, ermənilər dünya ölkələrində türklər tərəfindən soyqırıma məruz qalmalarının 100 illik tədbirlər keçirməyə hazırlaşırlar. Hətta keçmiş prezident Ter-Petrosyan da İrəvanın bu siyasətini ölkəsi üçün zərərli sayaraq türklərlə düşmənçiliyin ermənilərə fayda gətirməyəcəyini bəyan edib. Ayrı-ayrı erməni yazarlarının da Xocalıya görə Azərbaycan xalqından üzr istəməsindən sonra Ermənistan hakimiyyətinin erməni lobbisinin təsiri altında antitürk tədbirlərini keçirməyə israrlı olması Bakı və Ankaranı birgə addımlar atmağa vadar edir. Xocali tədbirlərinin yüksək səviyyədə keçirilməsindən sonra qardaş ölkələr hərbi əməkdaşlığın növbəti mərhələsinə qədəm qoyublar. Belə ki, Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri Komandanı ordu generalı Akın Öztürk Azərbaycan Respublikasına rəsmi səfərə gələcək. Səfər çərçivəsində qonağın Müdafiə Nazirliyində bir sıra görüşləri planlaşdırılır. Türkiyə Hərbi Hava Qüvvələri Komandanı ordu generalı A.Öztürkün Azərbaycana səfəri martın 6-dək davam edəcək.

Paralel olaraq Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən "TurAz Şahini 2015" təlimləri başlayıb. Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarəsi müştərək təlimlərdə iştirak etmək məqsədilə Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazaya gəlib. Eyni zamanda "İŞIK-2015" beynəlxalq axtarış-xilasetmə təlimlərində iştirak etmək məqsədilə Azərbaycan Hərbi Hava Qüvvələrinin 4 ədəd Mi-17 döyüş-nəqliyyat helikopterləri də təlim keçiriləcək Konyadakı aviabazaya yollanıb. Təlimlərdə Azərbaycan və Türkiyə ilə yanaşı bir sıra ölkələrin hərbi hava qüvvələrinin vasitələri müştərək fəaliyyətlərin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən axtarış-xilasetmə və digər tapşırıqları yerinə yetiriləcəklər. Təlimlərin aprelin 13-dək davam etməsi də İrəvanın "soyqırım" şoularına aviaşou cavabı kimi xarakterizə edilə bilər. Azərbaycan həqiqətlərinin dünyada təbliği istiqamətində də işlər nəticə verməkdədir. Artıq bizim haqlı mövqeyimizi əcnəbilər də müdafiə edərək bu barədə yazılar dərc edirlər. **Politoloq Vəfa Quluzadə isə "Yeni Müsavat"a dedi ki, söhbət 100 illik tədbirlərdən getmir:** "Fakt budur ki, bölgədə müharibə təhlükəsi var. Çünki atəşkəs xəttində son vaxtlar aktivlik çox artıb. Sabina Frayzer demişdi ki, təsadüfi müharibə ola bilər. Amma mən belə hesab etmirəm. Tərəflər Moskva tərəfindən müharibəyə təhrik edilə bilər. Rusiyaya təzyiqlər artsa, Moskvanın ürəyindən Cənubi Qafqaza zərbə endirmək keçə bilər. Yaxud Rusiya "soyqırım" faktından istifadə edib deyə bilər ki, guya ermənilərdə türklərə qarşı kəskin nifrət baş qaldırıb və hücuma keçiblər. Yaxud cəbhədə müharibə alovunun adi qığılcım nəticəsində başlandığı iddia oluna bilər. Ona görə də Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri bu cür təhlükələrin qarşısını almağa yönəlib, mən buna əminəm".



### Vəfa Quluzadə: "Bölgədə müharibə təhlükəsi var"

***

Bugünlərdə italiyalı siyasi analitik Ermanno Visintainerin Xocalı soyqırımı haqqında məqaləsi dərc olunub. "Xocalı azərbaycanlıların qəlibində açıq qalan yaradır" adlı elmi məqalə İtaliyanın nüfuzlu "Ragusaoggi.it" xəbər saytında yerləşdirilib. Diaqspor Jurnalistlər Birliyindən "Yeni Müsavat"a verilən məlumata görə, Xocalı soyqırımının başverməsəbəbləri və Ermənistanın vandalizm siyasəti və s. analitikin elmi məqaləsində öz əksini tapıb. Xatırladaq ki, Azərbaycanı sevən və dəstəkləyən Ermanno Visintainer Şimali İtaliyanın Trentino bölgəsində fəaliyyət göstərən "Vox Populi" Strateji Araşdırmalar Mərkəzinin rəhbəridir.

***

**Avropa İttifaqı (Aİ) ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına və prezidentlər səviyyəsində də daxil olmaqla, Ermənistan və Azərbaycan arasında dialoqun qurulmasına yönəldilmiş vasitəçiliyi ilə danışıqları dəstəkləyir. Bunu «Trend»ə Aİ-nin mətbuat xidmətindən strukturun münaqişənin nizamlanmasındakı rolunu şərh edərkən deyiblər. Aİ-nin mətbuat xidmətindən bildiriblər:** "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması Aİ üçün ən yüksək prioritetdir və mövcud status-kvo qəbuledilməzdir".



## Ermənistanda silahlar işə düşdü

**Son vaxtlar gərgin günlərini yaşayan işğalçı Ermənistanda növbəti qanlı hadisələr baş verməkdədir. Paytaxt İrəvanda silahlı insident baş verib. (ANS) Ermənistan mətbuatının məlumata görə, şəhərin Nubaraşen rayonunda avtomatla silahlanmış naməlum şəxslər "Nubaraşen" həbsxanasına hücum çəkiblər. Atışma nəticəsində 3 nəfərin öldürüldüyü bildirilir. Onlardan biri hadisə yerində, ikisi isə xəstəxanada keçinib. İrəvan polisi hadisə yerinə gəlib. Hazırda insidentin baş vermə səbəbləri araşdırılır.**

Sərkisyan hakimiyyətinə qarşı etirazların gücləndiyi bir zamanda "Çiçəklənən Ermənistan" Partiyasına qarşı prezident Serj Sarkisyan və onun komandası tərəfindən edilən təzyiqlər nəticəsini verib. Belə ki, partiyanın rəhbəri milyarder Qaqik Sarukyan istefaya göndərilib və onun yerinə yenisi gətirilib. Məlumata görə, bu barədə Ermənistanın "Qraparak" qəzeti yazıb. Partiyanın ölkənin Milli Məclisdə təmsil olunan "Çiçəklənən Ermənistan" fraksiyasının iclasında Q.Sarukyanın yerinə fraksiya katibi Naira Zoqrabyanın təyinatı ilə bağlı təklif bəyənilib.

Partiyanın Siyasi Şurasının sədr vəzifəsi keçmiş şəhərsalma üzrə nazir işləmiş Vardan Vardanyana etibar edilib. Hansı ki, onun adı Milli Kitabxana binasının təmiri zamanı sui-istifadə faktı üzrə açılan cinayət işində hallanır.

Xatırladaq ki, fevralın ortalarında iqtidarda olan "Respublika" partiyasının iclasında prezident Serj Sarkisyan Qaqik Sarukyan haqqında xoşagəlməz ifadələr işlədib, onu ölkə üçün şər qüvvə adlandırıb və ölkənin Təhlükəsizlik Şurasının üzvlüyündən azad edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015



# Gürcüstanda gizli İŞİD təlim düşərgələri - şok iddia doğrudurmu?

## Suriyanın ordu generalı Azərbaycana qonşu ölkədə gizli terror bazalarının olduğunu iddia edir; ekspertlər bunu istisna etmir; Pankisi yenidən gündəmə gəlir...

**Suriya ordusunun generalı Vəlid Abaza bu ölkədə ezamiyyətdə olan əməkdaşımızla söhbətində maraqlı, sensasiya sayılacaq bəzi açıqlamalar verib. Hazırda döyüş cəbhəsində savaşan general bildirib ki, Suriyada döyüşən əcnəbi yaraqlıların bir qismi Gürcüstanda təlim keçir. O həmin düşərgələrdən gələnlər arasında azərbaycanlılara da rast gəldiklərini deyib.**

**Sitat:** "Ötən həftə mənim tabeliyimdə olan ordu qüvvələri İŞİD mövqelərinə hücum zamanı Azərbaycan vətəndaşı olan dəstə başçısını öldürdü. Üzərində Azərbaycan pasportu və Türkiyə telefonları vardı. Həmin döyüşdə bir neçə İŞİD-çini də əsir götürmüşük. Onlar bildirdilər ki, öldürdüyümüz başçı Pankis dərəsində təlim keçib. Bir müddət də Qaziantepdəki düşərgələrdə təlimçi işləyib. Sonradan onu Suriya ordusuna qarşı vuruşmaq üçün Hələb yaxınlığına göndəriblər" *(General böyük ehtimalla, yaxın zamanlarda Suriyada həlak olan Rövşən Bədəlovu deyir - red.)*

**Vəlid Abaza iddia edib ki, İŞİD-in ən böyük təlim düşərgələrindən biri də Gürcüstan ərazisindədir:** "Gürcüstanın İŞİD-ə dəstək verdiyini bilirik. Ölkədə vəhhabilər üçün hər cür şərait yaradılır, yaratdıqları qurumlar vətəndaş cəmiyyəti institutları adı ilə rəsmi qeydiyyata alınır. Biz bunların hamısından xəbərdarıq. Çeçenistan savaşında vuruşan insanlar İŞİD-ə yeni qüvvələr cəlb edir, onlara təlim keçir. Avropa ölkələrindən, ABŞ-dan gələn terrorçular da Türkiyə, Gürcüstan düşərgələrində bir müddət qaldıqdan sonra Suriya ərazisinə keçir. Çeçenistan savaşında təcrübəsi olan vəhhabilərin çoxunu öldürmüşük, hamısının kökünü kəsəcəyik..."

Qeyd edək ki, Suriya generalının birdən-birə regiondan müəyyən mənada kənar olan bir dövlətin adını çəkməsi təsadüf görünə bilməz. Çünki Gürcüstan Suriyadan xeyli uzaq və xristian ölkə olaraq hazırda Suriya hakimiyyətinin maraq dairəsində ola bilməz. Məsələ ondadır ki, Suriyada daxili müharibə başlayandan sonra "Suriyanın dostları" qrupu adlanan ölkələr Əsəd hakimiyyətinin devrilməsi üçün müxalif qüvvələrin təşkilatlandırılması və silahlandırılması üçün bir sıra geniş fəaliyyətlər həyata keçirib. Müxalifətin maliyyələşdirilməsi, təşkilatlanma, parçalanmış müxalifətin mərkəzləşdirilməsi cəhdləri ilə yanaşı, eyni zamanda ölkədə hökumətə qarşı savaşan qruplara təlim keçilməsi, silah və maliyyə yardımlarının edilməsi bu qəbildəndir. Bu proqrama əsasən ərəb ölkələrinin maliyyə yardımları və ABŞ-ın silahla təminatı və təlimçilərinin iştirakı ilə Suriyaya sərhəd ölkələrdə müxaliflər üçün təlim düşərgələri qurulub. Belə düşərgələr İordaniya və Türkiyə ərazisində mövcud olub. Daha əvvəl Türkiyə hökuməti Adana və digər sərhədə yaxın bölgələrdə müxaliflərin təlim düşərgəsi olması faktını inkar etsə də, sonradan bu mövzu leqallaşdırıldı və elan olundu ki, ABŞ-la Türkiyə arasında imzalanmış müqaviləyə əsasən, Suriya müxalifətinin mülayim qanadı - Azad Suriya Ordusu birlikləri Türkiyənin sərhədə yaxın jandarmaya məxsus təlim düşərgələrində təlim alacaq.

Yeri gəlmişkən, ötən ay ABŞ-ın Defense One hərbi portalı Qətər, Türkiyə və Səudiyyə Ərəbistanının Suriyanın müxalif qüvvələrinə öz ərazilərində hərbi təlim keçirmək üçün icazə verdiyini yazıb. Saytın məlumatına görə, Suriya qüvvələrinə Birləşmiş Ştatların 400-dən çox hərbiçisi təlim məşqləri keçəcək. Artıq Türkiyə müdafiə naziri İsmət Yılmaz da bu mövzuda bəyanat verib. Onun bildirdiyinə görə, martın 1-dən müxalif Azad Suriya Ordusunun (ASO) silahlılarının təlimi və silahlandırılmasını nəzərdə tutan Türkiyə-ABŞ proqramının reallaşdırılmasına başlanılıb. Bu proqram Türkiyənin Kırıkkala əyalətində ASO-nun 2 minədək silahlılarının təlimini nəzərdə tutur.

Bir qədər əvvəl İordaniyanın bəzi dövlət məmurları İŞİD liderlərinin bir qrupunun 2012-ci ildə İordaniyadakı bir düşərgədə ABŞ MKİ və xüsusi təyinatlılarının təlimçiləri tərəfindən hazırlandığını etiraf ediblər. Bu təlimlərin xərcləri isə Səudiyyə Ərəbistanı və Qətər hökumətləri tərəfindən qarşılanıb. ABŞ hökuməti həmin vaxt bəzi "mülayim" xətt tərəfdarı olan müxalifətçilərə ABŞ ordusu tərəfindən İordaniyadakı düşərgələrdə, Suriyada savaşmaq üçün, təlim keçildiyini etiraf etmişdi. Ancaq görünür, təlimlərə Suriyadakı dünyəvi xətt tərəfdarı müxalifətçilər deyil, bilərəkdən radikal islamçılar cəlb olunub. Və yaxud amerikalıların bu barədə əvvəlcədən məlumatları və maraqları olub. İndi isə müxaliflərə təlim keçildiyi daha bir ölkənin adı çəkilir. Gürcüstan NATO-nun və ABŞ-ın bu bölgədə ən yaxın müttəfiqidir. Üstəlik, bu ölkə Qafqazda yerləşir, yəni Rusiyanın qaynar bölgəsi olan Şimali Qafqazla, cənubda isə Azərbaycanla həmsərhəddir. Rusiya İŞİD, "ən-Nusra" kimi qruplaşmaları terror təşkilatı elan edib və ölkə ərazisində bu qruplara dəstək verənlər təqib olunur. Ancaq buna baxmayaraq, hazırda İŞİD tərkibində döyüşənlər arasında Rusiya vətəndaşları xüsusi ağırlıq təşkil edir. Bunların əksər hissəsi çeçenlər və ya Şimali Qafqazdan olanlardır.

Söz düşmüşkən, Suriyada ən məşhur İŞİD komandirlərindən biri Ömər Şişani Gürcüstan vətəndaşı olub və Pankisi dərəsindəndir. Əsl adı Tarxan Batirașvili olan Ömər əş-Şişani milliyyəti gürcü, özü isə xristian olub. Ancaq sonradan radikal islamçılara qoşulan Tarxan adını dəyişərək Suriyada savaşıb.

Gürcüstanın Pankisi dərəsi hələ 90-cı illərin sonları, 2000-ci illərin əvvəllərində Şimali Qafqazdakı radikal islamçı döyüşçülərin də daxil olduğu partizan dəstələrinin əsas təlim və istirahət düşərgəsi idi. Bu detalları nəzərə alanda Gürcüstan barədə iddianın o qədər də "qəribə" olmadığı aydın olur. Üstəlik, Gürcüstan Qərbin müttəfiqidir, NATO-nun bir sıra hərbi layihələrində geniş tərkibdə iştirak edir. Eyni zamanda xristian ölkəsi olaraq radikal islamçı təhlükəsi Gürcüstan hakimiyyətini narahat etmir.

**Ekspertlər də bu məsələyə birmənalı yanaşmır. Rusiya Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı Ekspertlər Şurasının üzvü Adıgözəl Məmmədov hesab edir ki, Bəşər Əsəd generalının ittihamı olduğu üçün ona birmənalı yanaşmaq olmaz:** "Siyasi konyukturadan irəli gəlir. General ABŞ-a müttəfiq olan ölkələri ittiham edir. Bu səbəbdən də iddiaya şübhə ilə yanaşmaq lazımdır. Hər kəsə aydındır ki, İŞİD-i qlobal güc mərkəzləri yaradıb və bu qruplaşmanın indiyə qədər davam gətirməsində bu mərkəzlərin dəstəyi var. Lakin bu ittiham həm də sübut tələb edir deyə, bir söz demək olmaz".

**"Trend" agentliyinin direktor müavini, ekspert Arzu Nağıyevə görə, hələ neçə il əvvəldən Pankisi dərəsində Çeçenistanda vuruşmaq üçün dəstələr hazırlanırdı. Pankisidə nəzarət edilməyən ərazilərin olduğunu vurğulayan ekspertin sözlərinə görə, bu ərazilərdə təlim düşərgəsinin olması mümkündür:** "Pankisi nəzarətdən kənar ərazidir və hələ illər əvvəldən də orda təlim düşərgələri olub. Hazırda da orda bu cür düşərgələrin olması mümkündür, çünki ora əsasən dağlıq ərazidir və təlim üçün uyğun məkandır. Marşrut da yaxşıdır - Gürcüstan-Türkiyə və Suriya. Həm Şimali Qafqaza, həm də Suriyaya yaxın ərazidir. Bir sözlə, müəyyən qədər inandırıcıdır. Yəni Pankisi dərəsinin ötürücü bir yer olmasını təsdiqləmək olar, bu bir faktdır. Buradan da baza kimi istifadə eləmək mümkündür. Bu gün Gürcüstanın mövqeyini də nəzərə alsaq, mümkün görünür. Bundan başqa, birinci Abxaziya müharibəsində Çeçenistan yaraqlıları gürcülərə qarşı vuruşub və buna görə də onların arasında münaqişə var. Faktiki olaraq Abxaziya və Osetiyanın Gürcüstandan ayrılmasında Basayev və digərlərinin müstəsna rolu var".

**A.Nağıyev deyir ki, Qərbin yaxın müttəfiqi kimi Gürcüstanın da Suriya ilə bağlı hansısa planlarda iştirakı mümkündür. Ekspertin fikrincə, bir qədər əvvəl Rusiya hakimiyyəti də bununla bağlı xəbərdarlıq edib:** "Ancaq bazaların olması daha real görünür. Lavrovun NATO və Gürcüstanla bağlı bir qədər əvvəl verdiyi bəyanat buna bir sübutdur".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Nəşriyyat qiymətlərini qaldırdı, bəs qəzetlər?

## Qəzetlərin qiyməti 1 manatadək qalxa bilər



**"Azərbaycan" nəşriyyatı 2015-ci il martın 1-dən çap xərclərinin 20 faiz artırılacağı barədə media qurumlarına xəbərdarlıq edib. Nəşriyyat bunun səbəbini ölkəyə gətirilən bütün növ poliqrafiya materiallarının qiymətlərində kəskin artımın olması ilə izah edir.**

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** söylədi ki, nəşriyyatın qərarı onlar üçün gözlənilməz olub: "Artıq fakt qarşısında qalmışıq, çünki martın 1-dən çap xərclərinin 20 faiz artırıldığı elan olunub".

Qəzetin satış qiymətinin artırılmasına gəlincə, Ə.Süleymanov deyib ki, bu addım onsuz da qəzetlərin pis durumunu daha da ağırlaşdıracaq. Özünü maliyyələşdirən qəzetlərin hamısının nəşriyyata borcları var. Belə bir vəziyyətdə çap xərclərinin artırılması qəzetlərin sıradan çıxarılmasıdır. "Qiymət artımını isə 1 il əvvəldən düşünsək də, indiki məqamda bu da çıxış yolu deyil, onsuz da hər şeyin qiyməti artır. Düzdür, alternativ mətbəələr barədə də fikirləşirik, buna gedilsə, ən böyük nəşriyyat olan "Azərbaycan" müflis olacaq. İndiki vəziyyətdə çıxılmaz durumdayıq, bir tərəfdən nəşriyyatın halına acıyırıq, onun məhv olmasını istəmirik, başqa tərəfdən isə özümüzü xilas etmək barədə düşünməliyik. Amma nə başqa mətbəəyə getmək, nə də qiymət artımı haqda qərarımız yoxdur. Bütün hallarda həmkarlarımızla vəziyyəti müzakirə edib yekun qərar verəcəyik".

Müsahibimiz qiymət artımının hansı həddə ola biləcəyi ilə bağlı sualı cavablandıranda dedi ki, indiki halda qəzetin satış qiymətini 50 qəpiyə qədər qaldırmaq ciddi fərq etmir və xərcləri ödəməyəcək. Bu səbəbdən də artımın 1 manata qədər qalxacağı ehtimalı istisna deyil.

"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov modern.az-a açıqlamasında bildirib ki, informasiyadan xəbər tutan kimi qəzetin mühasibatlığı ilə əlaqə saxlayıb: "Nəşriyyatdan da öyrəndim ki, bu haqda bizə xəbərdarlıq gəlməyib. O şey ki, bizə deyilməyib, o haqda nəsə söyləmək mənim üçün çətindir. Amma hesab edirəm ki, əsaslandırılmış artım olmalıdır. Əgər nəşriyyat çap xərclərini artırsa, biz də məcbur olub hansısa addım atmalıyıq. Onsuz da qəzetlərimiz ucuz deyil. Başqa ölkələrə nisbətən biz məcburiyyət qarşısında qalıb qəzetlərin qiymətini qaldırmışıq. Məndən olsa, qəzetin qiymətini aşağı salaram. Amma bu, mənlik deyil. Bizim maliyyəmizə az təsir göstərir. Mənim təkbaşına, fərdi qaydada qərar qəbul edib qəzetin qiymətini artırmaq səlahiyyətim yoxdur. Əvvəla, bütün qəzetçilər bir yerə yığışmalıyıq, Mətbuat Şurasında bunu müzakirə etməliyik, oxucuları nəzərə alıb sonra artırmalıyıq. Qəzetlər 20 qəpikdən 40 qəpiyə qaldırılanda da bu, belə oldu. Bizim qəzetlər oxucular üçün çap olunur. Onlar bizi yaşadır, biz də onları nəzərə almalıyıq. Bütün hallarda məsləhətləşmələr olur. İstəyərdim ki, qiymətlər artmasın və biz buna əl atmayaq. Onsuz da oxucu bolluğunda deyilik. Bəlkə də qiymət artımının bizə xeyrindən çox ziyanı dəyə bilər".

❑ **SEVİNC**

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015



# Tolerantlığın Azərbaycanda dərin kökləri var

## İstər dini, istərsə də milli zəmində ölkəmiz bütün dünya üçün açıq bir dövlətdir

**Azərbaycan olduqca mürəkkəb, böyük güclərin daim maraq dairəsində olan, bu üzdən məkrli planlardan sığortalanmayan coğrafi məkanda yerləşir. Bölgəmizdə təkcə siyasi baxımdan yox, dini və milli məsələlərdə də həssaslıq var. Tarixən Azərbaycanda müxtəlif dinlərin və millətlərin nümayəndələri firavan yaşayıb və yaşayır. Onlar burada özlərini sərbəst və rahat hiss edirlər, etnik qrupların vasitəsilə hər hansı təxribatlara cəhd edənlər isə zaman-zaman pərt olublar. Bütün bunlara əsaslanaraq tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycan dini və milli tolerantlıq baxımından bölgə dövlətləri arasında liderlik edir.**

Azərbaycan cəmiyyəti istər dini, istər milli zəmində sınaqlardan daim üzüağ çıxıb, heç bir təxribatlara uymayıb.

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın 20 faiz ərazisi - tarixən azərbaycanlılara məxsus olan Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon ermənilər tərəfindən işğal edilib. Hazırda nə Dağlıq Qarabağda, nə də Ermənistanda bir nəfər də olsun azərbaycanlı yoxdur, ermənilər buna qətiyyən imkan verəcək bir millət deyil. Ermənilərin başımıza gətirdiyi müsibətlərə rəğmən, bu gün Bakıda və Azərbaycanın digər bölgələrində 30 min erməni daimi olaraq yaşayır. Onlar Azərbaycanı özlərinə vətən seçiblər, qanunlarımıza əməl edirlər, burada milli və dini mənsubiyyətinə görə təzyiqlərə məruz qalmırlar.

Azərbaycanda bütün dinlərə, təriqət və məzhəblərə *(qanunla da qadağan edilən, radikal cərəyanlar istisnadır-red.)* və digər millətlərə mənsub olan toplumlara tarixən və bu gün tolerant, dözümlü münasibət bəslənilib. Bu, əlbəttə ki, inzibati metodlar hesabına əldə edilməsi mümkün olan məsələ deyil. Ona görə ki, tolerantlıq hər kəsin fərqli ifadə tərzinə, dini və milli mənsubiyyətinə hörmətlə, ziddiyyət təşkil etsə belə onun fikirlərinə dözümlü yanaşmaqdır. Ölkəmizdə bu cür münasibətlər sistemi mövcuddur. Bu, təbii ki, Azərbaycanın milli-mədəni, mənəvi dəyərləri, tarixi ənənələri və bütövlükdə milli mizin, xalqımızın xarakteri ilə bağlı olan məsələdir.

Müsəlman dövləti olan Azərbaycanda İslam mənsubları ilə yanaşı xristian, iudaizm və digər qeyri-ənənəvi dinlərə aid xeyli sayda vətəndaş və vətəndaşlığı olmayan insanlar yaşayır.

Bu gün Avropanın bir çox ölkələrində milli və dini zəmində münaqişələr baş verməkdədir. Xüsusilə Avropada İslam dininə və onun daşıyıcılarına qarşı arzuolunmaz münasibət - İslamofobiya müşahidə olunmaqdadır. Avropada yaşayan mühacirlər də bildirirlər ki, onlara orada heç də xoş münasibət bəslənilmir, ən ağır işlərə cəlb olunurlar, hansısa bir bəhanə ilə üz tutduqları ölkədən deportasiya edilirlər. Azərbaycanda isə əcnəbilərə münasibət tamamilə fərqlidir.

Azərbaycanda din dövlətdən rəsmən ayrıdır. Lakin Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə *(nümayiş etdirməyə)*, dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

Obyektivlik naminə qeyd etmək lazımdır ki, bu tarixi ənənənin qorunub saxlanılmasında dövlətin də rolu çox böyükdür. Əlbəttə ki, dini və milli tolerantlıq həm də insan hüquq və azadlıqlarının, demokratiyanın təməl prinsiplərindəndir. Bu baxımdan dövlət tolerantlığın daha da inkişaf etməsində maraqlı olmaya bilməz. Eyni zamanda Azərbaycanda tolerantlığın formalaşmasında dini icmaların fəaliyyəti də danılmazdır.

Azərbaycanda tarixən tolerantlıq ənənələrinin olması və bu gün də davam etməsi həm beynəlxalq təşkilatlar, istərsə də dünyanın nüfuzlu din xadimləri, din mərkəzləri səviyyəsində təsdiqini tapmış faktdır. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra dünyanın nüfuzlu din xadimləri dəfələrlə ölkəmizə səfər edibl. Roma Papasından tutmuş Rus Pravoslav Kilsəsinin rəhbərinə, Konstantinopol patriarxına qədər nüfuzlu din xadimləri Bakını, burada insanlara göstərilən münasibəti gördükdən sonra bir həqiqəti söyləyiblər; deyiblər ki, Azərbaycan təkcə neft ixrac edən ölkə deyil, o, elə Qərbin özünə tolerantlıq ənənələri ixrac edəcək bir ölkə ola bilər. BMT, ATƏT rəsmiləri, Azərbaycan üzrə məruzəçilər dəfələrlə bəyan ediblər ki, Azərbaycanda tolerantlığın böyük bir tarixi ənənələri var.

İndiyə qədər hansısa bir şəxs dini və milli mənsubiyyətinə görə Azərbaycanda ona dözümsüz münasibət göstərilməsindən şikayətlənməsi faktına rast gəlinməyib. Bu da ondan irəli gəlir ki,



Mübariz Qurbanlı



Yevda Abramov



İlqar İbrahimoğlu

Azərbaycan tarixən tolerant münasibət nümayiş etdirən bir ölkə olub. Azərbaycanın özünəməxsus dini və milli ənənələri var, lakin burada yaşayan hər bir xalqın inancına, milli mənsubiyyətinə hörmətlə yanaşılır. Bu gün Azərbaycanın dövlət strukturlarında, hətta rəhbər orqanlarda, parlamentdə kifayət qədər başqa millətlərə və dinlərə aid olan şəxslər çalışır.

Azərbaycan bu baxımdan tolerantlıq anlamında bir model kimi nümunə ola bilər. Yeri gəlmişkən, bütün beynəlxalq hesabatlarda Azərbaycanda tolerantlıq olduğu xüsusi vurğulanır və bundan məmnunluq duyulduğu qeyd edilir.

Dünyanın müxtəlif bölgələrində, hətta bu gün bizlərdən tolerantlıq tələb edən Avropada zaman-zaman yəhudilərə qarşı bir basqı olub. Nəzərə çatdıraq ki, 2500 ilə yaxındır yəhudilər bir toplum olaraq Azərbaycanda yaşayırlar. Yəhudilər Sasanilərin dövründən burada məskunlaşmış bir etnosdur. Lakin tarixin heç bir dövründə yəhudilərə qarşı nə milli, nə dini, nə də məişət zəminində heç bir arzuolunmaz münasibət olmayıb. Bu gün Bakı Dövlət Universitetində ivrit fakültəsi var. Fransa kimi dünyanın beşiyi sayılan bir ölkədə isə yəhudi qəbiristanlığı, sinaqoqları dəfələrlə təhqir olunub. Azərbaycanda belə hadisələrə heç zaman rast gəlinməyib. Dünyada yəhudilərin kompakt yaşadığı iki məkan var; biri Yerusəlim, biri də Quba. Bütün bunlar onu göstərir ki, istər dini, istərsə də milli zəmində Azərbaycan bütün dünya üçün açıq bir dövlətdir.

Bu yaxınlarda İsrailin baş naziri Benyamin Netanyahu Danimarkanın paytaxtı Kopenhagenin ən böyük sinaqoqunda baş verən qanlı hadisədən sonra Avropada yaşayan yəhudiləri İsrailə köçməyə səsləmişdi. Bu bəyanatdan sonra musavat.com-a açıqlama verən **Azərbaycan Milli Məclisinin yəhudi əsilli deputatı, Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yevda Abramov bildirmişdi ki, Azərbaycanda yəhudiləri körpə uşağı bəsləyən kimi bəsləyirlər. Sitat:** "Bizim cəmiyyətdən, hökumətdən, prezidentdən heç bir umacağımız, Azərbaycan xalqından umu-küsü etmək üçün heç bir problemimiz yoxdur. İtaliyada, Fransada baş verənlərin ardınca Danimarkada eyni hadisələr baş verdi. Sabah başqa yerdə baş verə bilər. Amerikanın özündə də məktəblərdə yəhudi uşaqlar qətlə yetirilir. Bu gün Avropanın durumunda nə ksenofobiya, nə islamofobiya, nə iudazim məsələləri tam həll olunmayıb. Millətlər orda tərəddüd içindədir... Bu gün Avropada gedən proseslər 1938-39-cu illərin təkrarıdır. O vaxt da belə idi, yəhudilər üçün fəlakət hazırlanırdı, bu gün də qorxu var. Lakin bunun Azərbaycana heç bir aidiyyəti yoxdur. Şükürlər olsun ki, Azərbaycan tolerant dövlətdir. Cənab prezidentin milli məsələlərlə bağlı siyasətini tam müdafiə edirik".

***

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi yönündə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin gördüyü işlər də intensivləşib. Bir neçə gün öncə Dövlət Komitəsində keçirilən geniş müşavirədə komitənin sədri Mübariz Qurbanlı maarifləndirmə məqsədilə keçirilən silsilə tədbirlərin davam etdirilməsinin zəruri olduğunu söyləyib. Komitə sədri bildirib ki, radikalizm ideyalarının yayılmasına qarşı Dövlət Komitəsi tərəfindən həyata keçirilən maarifləndirmə tədbirləri öz bəhrəsini verməkdədir. Davamlı olaraq respublikamızın bütün şəhər və rayonlarında milli-mənəvi və dini dəyərlərimizin, həmçinin, Azərbaycanın tolerantlıq ənənələrinin təbliği və təşviqi üçün çox böyük işlər görülür.

**"Cümə" icmasının imam-camaatı, ilahiyyatçı-filosof, Dini Etiqad və Vicdan Azadlıqlarını Müdafiə Mərkəzinin rəhbəri Hacı İlqar İbrahimoğlu bildirir ki, Azərbaycanda tarixən dini və milli zəmində tolerantlıq mövcud olub, bunun dərin tarixi kökləri var:** "Ümumiyyətlə, söhbət insanların birgə yaşayışından gedirsə, sözsüz ki, inancımızın bununla bağlı birmənalı tövsiyəsi var. Qarşılıqlı diqqət, qarşılıqlı ehtiram və saygı, mərifətlilik kimi birmənalı göstərişlər vardır. Hesab edirəm ki, sağlam düşüncə tərzində birgə yaşayış şərtləri, normaları baxımından bunlar olduqca mühüm və vacibdir, çox ciddi təmin olunmalıdır. Eyni zamanda təəssüflə onu da qeyd etməliyik ki, biz günümüzdə tolerantlıqdan sui-istifadə cəhdlərinə də rast gəlməkdəyik. İŞİD hadisələri göstərdi ki, lazımsız tolerantlıq bu cür qəddarlıqlara gətirib çıxarır. Ona görə də toplumun içərisində bu cür təkfirçiliyə, radikallıqlara qarşı bir immunitet də olmalıdır ki, onlar öz bəd əməllərini həyata keçirməyə imkan tapmasınlar. Həmçinin bəzi beynəlxalq güclərin də öz maraqlarını təmin etmək üçün tolerantlıqdan bir alət kimi istifadə etməyə cəhd göstərmələri müşahidə olunur. Bu da yolverilməzdir".

**Qeyd: Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

❑ Elşad MƏMMƏDLİ

YENİ MÜSAVAT
N 49 (6077) 5 mart 2015

# Bu dərsliklərdən istifadə etmək olmaz

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin elmi-metodiki monitorinqi haqqında məlumat yayıb. Lent.az-ın məlumatına görə, TQDK tərəfindən respublikanın ümumtəhsil məktəblərində I-XI siniflər üzrə (Azərbaycan və rus bölmələri birlikdə) istifadədə olan 391 dərslik,154 müəllim üçün metodik vəsait və 58 iş dəftərinin elmi-metodiki monitorinqi həyata keçirilib.**

Bunlardan yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış I-VI siniflər üzrə (Azərbaycan və rus bölmələri birlikdə) 135 dərslik, 151 müəllim üçün metodik vəsait, 58 iş dəftəri müzakirə edilmiş və 20 dərslik komplektinin istifadəsi məqsədəuyğun hesab edilməyib.

Qüvvədə olan tədris proqramları əsasında hazırlanmış VII-XI siniflər üzrə (Azərbaycan və rus bölmələri birlikdə) 156 dərslik və 4 müəllim üçün metodik vəsait müzakirə edilib. Elmi-metodiki monitorinq nəticədə müvafiq fənlər üzrə ekspert qrupları tərəfindən formalaşdırılan yekun rəylər təqdimat mərasimi 16 dekabr 2013-cü ildə keçirilib, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə Təhsil Nazirliyinin birgə layihəsi olan "Dərslik portalı"nda (derslik.edu.az) yerləşdirilib və Təhsil Nazirliyinə göndərilib.

2014-cü ilin mart-aprel aylarında TQDK-da Təhsil Nazirliyinin rəsmi müraciətinə əsasən ötən tədris ilində monitorinqi aparılmış II və III siniflər üzrə dərslik komplektlərinin təkrar çapı ilə bağlı, onların nəşrə qədərki maketlərinin elmi-metodiki monitorinqi aparılıb.

2014-cü ilin may-iyun aylarında Təhsil Nazirliyinin rəsmi müraciətinə əsasən yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış və istifadəsi VII siniflər üçün nəzərdə tutulmuş dərslik komplektlərinin maketlərinin qiymətləndirilməsi aparılıb. 21 adda 41 dərslik komplekti maketlərinin "Dərsliklərin qiymətləndirilməsi meyarları"na əsasən qiymətləndirilməsi həyata keçirilmiş və müvafiq materiallar Təhsil Nazirliyinə göndərilib.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

-----------------------------------------------

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

-----------------------------------------------

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# Hacıqabul sakini nazirdən kömək istəyir

**Hacıqabul sakini daxili işlər nazirinə müraciət edib. Zemfira Ələkbərova musavat.com-a göndərdiyi məktubda nazir Ramil Usubovdan kömək istəyir: "Biz bir ilə yaxındır ki, qapılarda qalmışıq. Hara gediriksə, bizi başdan edirlər. Cənab nazir, Sizin məlumatınız olmayan bir haqsızlıqla üzləşmişik. Çox xahiş edirik ki, bizi dinləyib, kömək edəsiniz.**

Yetimçiliklə, min əzab-əziyyətlə, atasız tərbiyəli, mədəni, qabiliyyətli oğul böyütdüm. Uşaq sevinə-sevinə polis paltarı geyindi. Amma oğlum heç bir günahı olmadan kiməsə qurban verildi və 11 illik xidməti yerə vuruldu, 3 övladının qarşısında xəcalətli oldu.

Bu 6 nəfər ailənin ağırlığı yenə bu ağbirçək yaşımda mənim üzərimə düşüb. Üzləşdiyimiz bu dözülməz haqsızlığı, Ramil müəllim, Sizin diqqətinizə çatdırmaq istəyirəm. Lakin bu günə kimi Sizinlə görüşməyimə heç cür şərait yaradılmır.

28 fevral 2015-ci il tarixdə Şirvan şəhərində Siz vətəndaşları qəbul etməyə gələndə yenə də "sehrli qüvvə" qabağıma sədd çəkdi. Mənim kimi anaların, kimsəsiz yetimdarların güman yeri Azərbaycan dövləti və Sizsiniz. Oğlumun üzləşdiyi haqsızlığın detalları barəsində qəbulda ətraflı məlumat verə bilərəm. Bir ana kimi xahiş edirəm ki, məni qəbul edərək dinləyəsiniz. Bütün ailə üzvlərimiz Sizə daim minnətdarıq".

❑ EMİL

# Avropa Oyunlarında biletlərin qiymətləri açıqlandı

## 16 yaşdan aşağı uşaqlara giriş pulsuz olacaq

**I Avropa Oyunlarında uşaqlar və yaşı 16-dan az olan yeniyetmələr üçün əksər yarışlara biletlər pulsuz olacaq. Lent.az-ın report.az-a istinadən verdiyi məlumatına görə, bu barədə Avropa Oyunlarına 100 gün qalması münasibətilə təşkil olunan mətbuat konfransında açıqlama verilib. Bildirilib ki, biletlər böyüklər üçün münasib qiymətə satılacaq.**

Qiymət aralığı yarışın raundu (ilk və ya final), oturacaq kateqoriyası və yarış məkanından asılı olaraq, 2-5 manat təşkil edəcək. Şəxsiyyəti təsdiq edən sənədləri olan böyüklərin (18 yaş və ondan yuxarı) himayəsində etibarlı biletləri olan uşaqlar və yaşları 16-dan az olan yeniyetmələr əksər yarış məkanlarına pulsuz giriş əldə edəcəklər. Lakin Heydər Əliyev adına İdman Arenasında və Milli Gimnastika Arenasında keçiriləcək yarışlar istisna təşkil edəcək. Burada 16 yaşdan kiçik şəxslər üçün biletlər 1 manata olacaq.

Açılış və bağlanış mərasimlərinin bütün yaş qruplarından olan tamaşaçılar üçün bilet qiymətləri fərqli və əlverişli olacaq. Açılış mərasimi üçün biletin qiyməti 20 manatdan və bağlanış mərasimi üçün 10 manatdan başlanır.

# Rusiyada həbsdən yeni çıxan azərbaycanlı vəhşicəsinə öldürülüb

## Onun kəsilmiş əlləri və ayaqları çamadanın içində tapılıb

**Rusiyanın Rostov vilayətində 46 yaşlı azərbaycanlı vəhşicəsinə öldürülüb. APA-nın Rusiya KİV-nə istinadən məlumatına görə, Rostov vilayətinin QRES qəsəbəsində çamadanın içində kəsilmiş insan əlləri və ayaqları tapılıb. Rusiya hüquq-mühafizə orqanları çamadanın içində olan kişi cəsədinin qalıqlarının 46 yaşlı azərbaycanlıya məxsus olduğunu açıqlayıblar. Həmin azərbaycanlının həbsxanadan yenicə çıxdığı bildirilib. Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.**

# Bakıda şantajla məşğul olan qadınlar həbs edildi

**Martın 2-də Bakı şəhərində paytaxt sakini Zəminə Məmmədova (ad və soyad şərtidir) barəsində rüsvayedici məlumatlar yayacağı ilə hədələyib 3000 ABŞ dollarını alan şəxslər saxlanılıb.**

Lent.az-ın Daxili İşlər Nazirlyinin saytına istinadən verdiyi məlumatına görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şantaj edən Masallı rayon sakinləri Nigar Seyfullayeva və Günay Ağayeva tutulub.

# Müəllimlər İnstitutunun daha bir saxta diplomu ələ keçdi

**Mingəçevir sakinindən saxta diplom götürülüb. Lent.az-ın Daxili İşlər Nazirliyinə istinadən verdiyi məlumata görə, Mingəçevir Şəhər Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində şəhər sakini Əli Babakişiyevdən Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialını bitirməsi barədə saxtalaşdırılmış diplom götürülüb.**

## Elan

**Əzizli Tural Həzi oğluna məxsus Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

# Bakıda gömrük işçisi güllələndi - 102 min manat aparıldı

**Bir neçə gün öncə paytaxtın mərkəzində ofisə basqın olub. "Qafqazinfo"nun hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, hadisə fevralın 28-də saat 22 radələrində baş verib. Naməlum şəxs Nəsimi rayonu, Kovereçkin küçəsində yerləşən ofisə basqın edib.**

O, Bakı şəhər sakini 1963-cü il təvəllüdlü Ərfatsiyad Babayevi sol çiynindən güllələyib. Bundan sonra seyfdən 102 min manat pulu götürüb və ofisin arxa qapısından çıxaraq oradan uzaqlaşıb. Ə.Babayev xəstəxanaya daxil olub, vəziyyəti ağırdır. Məlumata görə, Ə.Babayev Gömrük Komitəsində işləyir.

Nəsimi Rayon Prokurorluğundan bildirilib ki, iş Bakı Şəhər Prokurorluğuna verilib.

"Bakı Baş Gömrük İdarəsinə heç bir basqın və silahlı insident olmayıb. Bununla bağlı bəzi media orqanlarında yazılanların əsası yoxdur və yalandır". Bu barədə APA-ya Bakı Baş Gömrük İdarəsindən bildirilib.

Məlumatda qeyd olunub ki, bu barədə yayılmış məlumatlar dəqiqləşdirilməmiş və həqiqətdən uzaqdır.




# Novruz bayramı ərəfəsində «Azercell»dən yeni kampaniya

## Abunəçilər 6 ay boyunca hər ay 5 saat şəbəkədaxili pulsuz danışıq əldə edəcəklər

**Azərbaycanın lider mobil operatoru bu yaz da Novruz Bayramı ərəfəsində abunəçilərini sevindirməyə davam edir. Şirkət yeni «Azercell» fakturasız xətt nömrələri və nömrə daşınması xidməti çərçivəsində nömrələrini «Azercell» fakturasız xətt sisteminə daşıyan abunəçiləri üçün yeni kampaniyaya start verib. ««Azercell»ə gəl, hər ay pulsuz 5 saat qazan" kampaniyası 2015-ci il 3-31 mart tarixləri arasında keçirilir. Kampaniyanın keçiriləcəyi bu muddət ərzində SimSim nömrəsi aktivləşdirən hər kəs ayda ən azı 5 AZN yükləməklə, 6 ay boyunca hər ay pulsuz 5 saat şəbəkədaxili danışıq imkanı əldə edəcək. İstifadə müddəti 7 gün olan hədiyyə saatları şəbəkədaxili zənglər üçün nəzərdə tutulub. Onu da qeyd edək ki, abunəçi nömrədə mövcud Bizimkilər tarif paketini dəyişdiyi halda, kampaniyada iştirakı dayandırılır.**

**«Azercell» bu bahar 4,5 milyonluq abunəçi ailəsini yeni kampaniyalar və xidmətlər ilə sevindirməkdə davam edəcək.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ailto:news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell Telekom MMC» 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell Ekspres» ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51.3% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2014-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell 3G», 2012-ci ildə isə 4-cü nəsil şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. «Azercell» dünyanın 17 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaçı olan «TeliaSonera» şirkətlər qrupunun bir hissəsidir.**


## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04


## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**



# Bakıda intihar həyəcanı

## Gənc oğlan ticarət mərkəzinin damına çıxıb qollarını, boğazını bıçaqla kəsdi

**Martın 4-də bir gənc Bakının Nizami rayonu ərazisində yerləşən "Lotos" ticarət mərkəzinin damına çıxaraq, intihara cəhd edib. Hadisə yerində olarkən müşahidə etdik ki, xilas olunana qədər o, diqqəti özünə çəkməyi bacarıb. Dama çıxan adam əlindəki bıçaqla qollarına, boğazına, sinəsinə xəsarət yetirirdi. Ruhi halı normal görünməyən şəxsə heç bir polis və ya FHN əməkdaşı yaxınlaşa bilmirdi.**

Onu aşağıya düşmək üçün razı salmağa çalışanlara "Yaxınlaşmayın, yaxınlaşsanız özümü atacağam" deyirdi. Və hər dəfə də əlindəki bıçaqla özünə xəsarət yetirirdi. Boğazı, sinəsi, qolları qan içində olan şəxs özünü itirmiş halda görünürdü. Ticarət mərkəzinin önündə hadisəni yaxından görməyə çalışan, əllərində mobil telefonlarla hadisəni videoya çəkmək istəyən insanlarla dolu idi. Yüzlərlə şəxs binanın üstünə çıxan şəxsə diqqətlə tamaşa edirdi. Hətta bəziləri gülə-gülə yuxarıya səslənirdi: "Kişi deyilsən? At da özünü. At, baxaq". Gülüşmə səsi bəlkə də həmin adama da gedib çatırdı, amma o, buna fikir verəcək durumda deyildi. Sonra hadisə yerinə gələn FHN əməkdaşları ətrafda yığışan insanları ərazidən uzaqlaşdıraraq, təhlükəsizlik lentləri çəkdilər. İntihar etmək istəyən şəxsin yerə düşəcəyi təqdirdə həyatını xilas etmək üçün FHN əməkdaşları təhlükəsizlik brezenti açdılar. Bu şəxsin kimliyi hələ ki məlum olmasa da, istəkləri haqqında məlumat əldə etdik. O, telekanalların hadisə yerinə gəlib süjet hazırlamasını tələb edir və həbsxanada olan qardaşının vəziyyətindən danışırdı. Həmin şəxs deyirdi ki, onun qardaşı 12 saylı cəzaçəkmə müəssisəsində, günahsız yerə yatır və o, tələb edir ki, qardaşının işinə ədalətlə, düzgün baxsınlar. Daha sonra hüquq-mühafizə orqanlarının işçiləri hadisə yerinə özünü öldürməklə hədələyən şəxsin bacısını gətirdilər. Onun vasitəsilə isterik vəziyyətdə olan şəxsi sakitləşdirmək və damdan düşürməyə nail oldular.

Həmin şəxs müvafiq araşdırmalar aparılması üçün dərhal polis bölməsinə aparıldı.

**İntihara cəhd edən şəxs polis avtomobilinə aparılarkən bu sözləri uca səslə qışqıraraq dedi:** "Rafiq Məmmədov, Rafiq Məmmədov... Mənim qardaşımdır. 12 saylı cəzaçəkmə müəssisəsində həbsdədir. Onu haqsız yerə tutublar. Zülm edirlər. Mən prezidentə müraciət edirəm".

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**













# ""Heydər məscidi"ndə ibadət üçün problem görmürəm"

**Tural Abbaslı:** "Məscid Allahın evidir və onun adı ikinci dərəcəlidir"

**Məşədi Natiq Kərimov:** "Yolum oradan düşsə, namazımı qılaram"

**Xəbər verdiyimiz kimi, Bakıda təzəcə inşa edilən "Heydər" Məscid-Kompleksinə artıq QMİ sədrinin müavini Hacı Sabir Həsənli sədr təyin edilib. Ancaq ötən ilin dekabrında açılışı olmasına rəğmən, məscidin qapıları bağlıdır, kompleksə qalxan pilləkənlər və eskalatorun qarşısı lentlə qapanıb. Məscidin nə zaman fəaliyyətə başlayacağı məlum deyil.**

"Heydər" məscidinin icması olmayacaq və kompleksə bir nəfər rəhbərlik edəcək, ibadəti bir neçə axund və imam aparacaq, sədr isə ümumi rəhbərliyi həyata keçirəcək, təsərrüfat işlərinə nəzarət edəcək. Maraqlıdır, ibadət evi açılarsa, inanclı müxaliflər bu məscidə namaz qılmağa gedəcəklərmi? Yoxsa bu məsələdə ibadət evinin adına siyasi aspektdən yanaşma olacaq?

Müsavatın Divan üzvü Tural Abbaslı deyir ki, namaz qılmağa gedərkən məscidin kimin adına olmasına baxmır. Onun fikrincə, ilk növbədə məscid Allahın evidir və ibadət məqsədi ilə üz tuturlar. Müsavatçı hesab edir ki, ad məsələsi ikinci dərəcəli planda qalır.

**T.Abbaslı belə bir fərqin qoyulmasını tövsiyə etmir:** "Məscid ibadət üçün tikilir və sayı nə qədər çox olsa, yaxşıdır. Təki məscid açılsın. Bakıda ibadət evlərinin sayı çox deyil. İndiyədək namaz qılmağa getdiyim məscidlərin kim tərəfindən tikilməsi, adını nə olmasına fikir verməmişəm".

**Müsavatçı qeyd edir ki, məscidə ad verilməsi artıq ibadət evini tikdirənin işidir:** "Düzü, "Heydər" məscidi yaşadığım ərazidən aralıdadır. Ona görə namaz qılmağa ora getmək həm uzaqdır, həm vaxt itkisidir. O ətrafda yaşayanlar üçün münasibdir".

**Nardaran Ağsaqqallar Şurasının sədri Məşədi Natiq Kərimov məscid tikintisini böyük hadisə sayır. Onun fikrincə, ibadət evinin kim tərəfindən tikilməsi və ad seçimi böyük məsələ deyil:** "Bu, müsəlmanlar üçün xoş hadisədir. Azərbaycan reallığında digər məsələlər arxa plana keçir. Mən şəxsən yolum ordan düşsə, gedib bu məsciddə namazımı qılaram. Nə qədər çox məscid tikilsə yaxşıdır. Bu məscid dövlətin, xalqın pulu ilə tikilib".

❑ **EMİL**

# Müğənni xanımlara bahalı hədiyyələr verilir, bəs siyasətçi xanımlara?

**Vəfa Cümşüdlü:** "Ən dəyərli hədiyyəni övladlarımdan almışam"
**Almaz Əliqızı:** "Bir vaxtlar rəhmətlik Əbülfəz Elçibəy mənə bir qələm bağışlamışdı"
**Ellada Məmmədli:** "Ən böyük hədiyyəm qələm və illərin sınağından çıxmış dostlarım olub"
**Nüşabə Sadıxlı:** "Böyük oğlum dünyaya gələndə həyat yoldaşım mənə brilyant üzük hədiyyə etmişdi"

**Bu günlərdə xalq artisti Aygün Kazımovaya 150 min manat qiyməti olan "Mercedes GL" avtomobili hədiyyə edilib. Bu haqda sosial şəbəkədə xalq artistinin prodüseri Tolik məlumat yayıb. Ümumiyyətlə, son illərdə şou-biznes əhlinə ev, maşın, digər dəyərli hədiyyələrin verildiyini tez-tez eşidirik. Amma eyni halı siyasətçi xanımlar üçün demək çətindir.**

Keçmişə nəzər salsaq görərik ki, Azərbaycanda da bir sıra missionerlər olub ki, onlar siyasətçilərə, ziyalı xanımlara müəyyən köməklik edirdilər. Ancaq indi bunu söyləmək qeyri-mümkündür. Maraqlıdır, siyasətçi xanımların bu günə kimi aldığı ən dəyərli hədiyyə nə olub?

**Müsavat Partiyasının başqan müavini Vəfa Cümşüdlü ən dəyərli hədiyyəni övladları tərəfindən aldığını dedi:** "Mən siyasəti şou hesab etmirəm. Siyasətin konkret hədəfləri, məqsədləri var. Konkret hədəf və məqsədlər uğrunda apardığın mübarizədə sənə xalq dəyər verməlidir. Əgər biz xalqın xoş və fıravan şəkildə yaşaması üçün mübarizə aparırıqsa, dəyərləndirmə də xalq tərəfindən olmalıdır. Ona görə də hesab edirəm ki, konkret şəxslər tərəfindən kiminsə mükafatlandırılması olmalıdır. Xalq onun üçün mübarizə aparan şəxsləri dəyərləndirməlidir. Müğənni xanımlarla siyasətçi xanımların eyni sırada tutulması və müqayisə edilməsini xoş qarşılamıram. Mənim üçün ən gözəl və dəyərli hədiyyə ailəmin mənə diqqətidir. Ad günümdə və özəl günlərdə hədiyyələr almışam. Ancaq ən yadda qalan hədiyyə 8 martda övladlarımın balaca olarkən mənə aldıqları ilk hədiyyə olub".





**Müsavat Partiyasının Məclis üzvü Almaz Əliqızı onun üçün ən qiymətli hədiyyənin Əbülfəz Elçibəy tərəfindən bağışlanan qələm olduğunu dedi:** "Bütün dünyada, eləcə də Azərbaycanda keçmişə nəzər salsaq görərik ki, xüsusi missionerlər həmişə siyasət adamlarına, tanınmış ziyalılara kömək ediblər. Amma Azərbaycanda son illər ancaq şou-biznes əhlinə hədiyyələr edirlər. Gərək nə qədər səviyyəcə enəsən ki, Aygün Kazımovaya 150 min manatlıq maşın hədiyyə edəsən. Axı Aygün Kazımova bu millət üçün nə edib?! Hansı məsələlərdə bu adam bir ziyalı kimi ortaya çıxıb və gündəmə bir məsələ qoyub. Aygün Kazımovaya mən heç 100 manatımı da vermərəm. Mən belə şeyə çox pis baxıram. Aygünə maşın hədiyyə etməkdənsə bizim gözəl, ziyalı xanımlarımız var, hansı ki, o xanımlar pulsuzluq ucbatından kitablarını çap edə bilmirlər. Onlara və ya uşaq evlərinə kömək edin. Mən müğənnilərə bahalı hədiyyələr alan adamlara ciddi baxmıram".

**Hədiyyə almağı sevmədiyini deyən siyasətçi xanım bir vaxt Elçibəydən aldığı qələmi indiyədək ən əziz xatirə kimi saxladığını söylədi:** "Ailəmdən kənar aldığım tək dəyərli hədiyyə budur. Hədiyyə almağı sevmirəm. Ancaq iki bacımdan hədiyyə alıram".

**Müsavat Qadınlar Birliyinin sədri Ellada Məmmədli onun üçün ən böyük hədiyyənin qələm və illərin sınağından çıxmış dostları olduğunu dedi:** "Şou-bizbes əhli ilə siyasətçiləri eyniləşdirmək düzgün deyil - baxmayaraq ki, televiziyalarda siyasi rəyi də şou biznes əhlindən alırlar. Siyasətdə olan xanımlar bir çox məhrumiyyətlərə sinə gərərək fədakarlıq göstərib, varlıqlarını isbat edirlər. Şou-biznesdə olanlar haqqında fikir yürütmək istəməzdim. Siyasətçinin ödülü konfrans, qurultay nümayəndəsi seçilmək, seçkili orqanlarda iştirak etmək, siyasilər tərəfindən hansısa mötəbər tədbirlərdə, beynəlxalq forumlarda və sairə də iştirak etməkdir. Mənə gəldikdə isə ən böyük hədiyyəm qələm və illərin sınağından çıxmış dostlarım olub".

**Müsavat Partiyasının Divan üzvü Nüşabə Sadıxlı bildirdi ki, mənəvi cəhətdən dəyərli hədiyyəni Əbülfəz Elçibəy, maddiyatca dəyərli hədiyyəni isə həyat yoldaşı tərəfindən alıb:** "Hər ölkə öz mənəviyyatından çıxış edərək dəyərlər verir. Bu gün Azərbaycanda siyasətdən də, elmdən də, ədəbiyyatdan da şou-biznes önəmli olduğu üçün təbiidir ki, o xanımlar daha önəmli olur. Əbülfəz Elçibəy Amerika səfərindən qayıdandan sonra mənə çox gözəl bir qələm gətirmişdi. Yəni bu qələm mənim həyatımın mənəviyyatca ən dəyərli hədiyyələrindən biridir. İndi də onu qoruyub saxlayıram. Maddi dəyəri olan hədiyyəyə gəlincə isə böyük oğlum dünyaya gəldiyi zaman həyat yoldaşım mənə brilyant üzük hədiyyə etmişdi".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 49 (6077) 5 mart 2015

# Cənnət xurmasının faydaları



Xurmadan ürək-damar sistemi xəstəliklərinin müalicəsində istifadə edilir. Orqanizmi xərçəng xəstəliyindən qoruyur. Tərkibində bol miqdarda zülal, karbohidrat, fosfor, kalsium, dəmir, sodium, maqnezium, həmçinin, A, B1, B2, B3, C vitaminləri var. İshalı sağaldan xurma qəbizliyin aradan qalxması üçün də istifadə olunur. Tərkibindəki maqnezium sayəsində böyrəklərdə daşın əmələ gəlməsinin qarşısını alır. Yodla zəngin olan xurma qaraciyər və görmə qabiliyyətinə də müsbət təsir göstərir. Xurma sidikqovucu təsirə də malikdir. Əsəb sisteminə müsbət təsir göstərir və işgüzarlığı artırır. Həkimlər varikozdan əziyyət çəkən xəstələrə xurma yeməyi tövsiyə edirlər. Tez doyuzdurduğu və aclıq hissini uzun müddətliyinə yox etdiyi üçün pəhriz saxlayanlar üçün də uyğun qidadır. 2-3 ədəd xurma yeyərək doya bilərsiniz, kalorisi az olduğu üçün kökəlməyə səbəb olmayacaq. Xurma həm də anemiya, həmçinin qalxanabənzər vəzilərin fəaliyyətində olan problemlərdə, soyuqdəymənin profilaktikası üçün yaxşı vasitədir.



## Öz nəvəsini dünyaya gətirdi

Qadın öz nəvəsini dünyaya gətirib. Bu görünməmiş hadisə İngiltərədə qeydə alınıb. Belə ki, adı açıqlanmayan bir qadın övladı sahibi olmaq istəyən oğlu üçün surroqat ana olub. Dünyaya gələn körpənin atası qadının doğma oğlu, anası isə adı açıqlanmayan bir qadındır. Dünyada bir ilk kimi təqdim edilən hadisə İngiltərə yüksək məhkəməsinə də çıxarılıb. Hadisəni araşdıran məhkəmə kişinin anası tərəfindən dünyaya gətirilən uşağın qanunlara görə onun qardaşı olduğunu, lakin onun körpəni övladlığa götürə biləcəyi barədə qərar çıxarıb. Adı açıqlanmayan atanın 20 yaşlarında olduğu bildirilir. O, uzun müddət övlad sahibi olmaq istəyib. Yaxşı iş tapıb uşaq saxlayacaq maddi imkanı olduqdan sonra başqa bir qadınla övladını daşıması üçün razılıq əldə edib. lakin qadının səhhətində problem yarandığı üçün bu alınmayıb. Baş verən hadisəni ingilislər birmənalı qarşılamayıb. Onlar süni mayalandırma və surroqat ana ilə bağlı qanunların daha da sərtləşdirilməli olduğunu deyiblər.



## 125 kiloqram qızıl oğurlandı

Amerikanın Karolina ştatında qızıl və gümüş daşıyan "TIR" markalı maşın yolda xarab olub. Maşın dayandığı zaman avtobusla yaxınlaşan 3 nəfər maşını düzəltmək üçün düşən sürücünün diqqətsizliyindən istifadə edərək oğurluq ediblər. Kimliyi bəlli olmayan oğrular ağırlığı 125 kiloqram, dəyəri 4,8 milyon dollar olan qızıl və gümüşləri oğurlamağı bacarıblar. Qızılları daşıyan şirkətin rəhbərliyi oğruları tapanlara 500 min dollar verəcəklərini deyib.

# Kofe haqqında maraqlı faktlar

Bir bardaq Espresso kofesindəki kofein bir bardaq adi kofedən azdır.

Yaxşı qızardılmış kofe orta qızardılmışdan "zəifdir", çünki termik emal kofe dənələrində kofeinin konsentrasiyasını azaldır.

2004-cü ilə kimi kofe Beynəlxalq Olimpiya siyahısının qadağan olunmuş maddələrinə aid idi.

Hesab olunur ki, ilk dəfə kofeyə qəndi 1715-ci ildə XIV Lui qatıb.

Bethoven özünə kofe hazırlayanda hər bardağa 60 kofe dəni atırdı.

İnsan orqanizmi birdəfəlik 300 mq kofein mənimsəyə bilir, artığı "yan keçir".

18-ci əsrdə dad üçün kofeyə şit yağ qatırdılar.

Fransuz filosofu Volter gündəlik 50-70 bardaq kofe içirdi.

Kofe dövriyyəyə görə dünyada ikinci yeri tutur. Birinci yerdə neftdir.

Orta amerikalının istehlak etdiyi illik kofein miqdarı atı öldürəcək miqdardadır. Tarixçilər hesab edirlər ki, məşhur yazıçı Onore de Balzak kofeindən zəhərlənərək ölüb.





## 100 yaşlı bəy və 20 yaşlı gəlin

Səudiyyə Ərəbistanında görənləri, eşidənləri heyrətləndirən hadisə yaşanıb. 100 yaşlı kişi 20 yaşına belə çatmamış qızla ailə qurub. Toyun görüntülərinin bir hissəsi internetdə yayılıb. Bir əsrlik kişinin toyu dəbdəbəli keçib. Onu gənc ərəblər müşayiət ediblər. Xoşbəxtliyi gözlərindən oxunan bəyin ətrafında əli qılınclı kişilər rəqs edib, əyləniblər. Toy havasına oynayan əli qılınclılar yaşlı kişini gəlinin otağının qapısına kimi müşayiət ediblər.

Qeyd edək ki, ərəb ölkələrində qızların çox erkən yaşlarında özlərindən dəfələrlə böyük şəxslərlə evləndirilməsi adi haldır.




**QOÇ** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı problemləriniz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**ŞİR** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək iqtidarında deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra səfərə çıxın.

**QIZ** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**TƏRƏZİ** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**ƏQRƏB** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**OXATAN** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olardı ki, nahardan sonra işə ara verib bir qədər dincələydiniz. Çünki axşam saatlarında astral bədəniniz zəifləyə bilər.

**OĞLAQ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**SUTÖKƏN** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**BALIQLAR** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Pişiklər adanı işğal etdi



Yaponiyanın Aoşima adasında pişiklərin sayının insanların sayına nisbətən 6 dəfə artması beynəlxalq xəbər agentliklərində "Pişiklər Yaponiya adasını ələ keçirdi" deyə, məlumatlar yayılıblar. Ada sakinlərinin hədəfi, sadəcə, adada siçanların azalmasına səbəb olmaq imiş. Yalnız 22 nəfərin yaşadığı adanı indi pişiklər ələ keçirib. Hazırda adada 120 pişik yaşayır. Onlardan 10-nun bala dünyaya gətirməməsi üçün ehtiyat tədbirləri görülüb. Pişiklər adadakı zibilliklərdən yemək taparaq qidalanırlar. Adaya hər gün onlarla turist gəlir və olar pişikləri görmək istəyirlər. Turistlər pişiklərə balıq verərək onlarla şəkil çəkdirirlər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300